**Sayman Aruz**

# YÜZ İL İNQİLAB

Roman Güney Azərbaycanın indiki durumuna güzgüdür – cəmiyyətin həyat tərzi, ictimai-siyasi və dini problemləri əks olunmuşdur.

Romanın əsas obrazı olan Seyid, uşaqlıq sevgilisi Raziyə ilə zindanda üz-üzə gəlir. Raziyə, Güney Azərbaycan milli azadlığı uğrunda döyüşənlərdən biridir.

Seyid məmur olduğundan Raziyəyə işgəncə verilməsini ona tapşırırlar.

Seyid, Raziyəni gördükdə ürəyindəki uşaqlıq sevgisi yenidən alovlanmağa başlayır.

Seyidin teokratiyanın yalanlarından bərkimiş ürəyi sevginin qarşısında yumşalır. Seyid teokratiyanın qaydalarına tabe olmur, rejimin tələblərinə əməl etmir.

O, ürəyinin hökmünə qulaq asır.

Raziyəni seçməklə milli azadlıq uğrunda mübarizə aparan insanların yanında olmağı qərar verir.

Az 2

Bakı, “Qanun Nəşriyyatı”, 2012
104 səhifə

Redaktor:  M.Məmmədov

ISBN – 978-9952-26-

© “Qanun Nəşriyyatı”, 2012

Bakı, AZ 1102, Tbilisi pros., II Alatava 9
Tel: (+994 12) 431-16-62; 431-38-18
Mobil: (+994 55) 212 42 37
e-mail: info@qanun.az
www.qanun.az

Uşaqlığımızı bir küçədə keçirtdik. Bizim evimiz onların evləriylə divar-bir idi. Yaşıl, rəngi tökülmüş qapılarındakı qu quşlarının şəkli hələ də gözümün qabağındadı. Küçəmizi futbol meydançasına çevirəndə, həmin qapını dərvaza kimi istifadə edərdik. O qu quşlarının başına çox toplar çırpmışdım. Futbol oyunlarımız həmişə davayla sona çatardı. Məndən iki yaş böyük idi, amma heç vaxt bunu hiss eləmədim. Anası Məsumə xanım olduqca vasvası bir qadın idi. Bəlkə hər gün o uşağın pal-paltarını yuyub, özünü isə döyə-döyə hamama salardı. Məhəllə uşaqları hətta onların ayaq yoluna getmələrini də maraqlı bir serial kimi izləyərdilər! O, Raziyənin şalvarını dizinə qədər aşağı çəkər, qucağına alar və söyə-söyə həyətin o başındaki ayaq yoluna apparardı.

– "Pislik tutmuuuuş... nəsli kəsilmiiiiş..., səni görüm Kürd başıyı yesin, balaaa"...

Məhlənin uşaqları da bu olanları bizim divarımızın üstündən gizlicə izləyərdilər. Yazıq Raziyə döyülə-dö-

yülə, söyülə-söyülə böyüyürdü! Bizsə onun izləyicisiydik. Bəlkə anasının elənçik olması Raziyəni bu qədər sakit bir qıza çevirmişdi. Çox sakit idi. Çətin danışdıra bilirdik onu. Nahardan sonra yığışıb "arada qaldı" oynayanda, sakitcə gəlib qu quşlarının altında çömbəltmə oturub, qapılarına söykənib bizə baxardı. Uşaqlıqdan ona qarşı nəsə bir məhəbbət hissim var idi. Özüm də hardasa ona tay bir zad idim. Bütün əclaflıq və dəcəlliyimə rəğmən sakit və dərs oxuyan uşaq idim. Bəlkə elə buna görə özümlə onun arasında yaxınlıq hiss edirdim. Tək tapanda əlindən yapışıb, guya "qonaq bacı" oynamaq üçün həyətimizə gətirərdim.

– Raziyə!?

Sıxıla-sıxıla cavab verərdi:

– Hə!

– "Qonaq bacı" oynuyaq?

Etiraz eləmədən gələrdi. Xanım olmaqdan çox xoşu gəlirdi. Ancaq oyuncaqları qucağına alıb, ana rolunu oynayanda ürəyinə qorxu dolardı.

– Mamam öldürəcək!

Getməyini istəmirdim deyə, onu aldatmağa çalışırdım.

– Qorxma Raziyə. Mamama deyərəm mamanla danışar. Sən gözlə üstün batmasın da... Evə nə lazımdı gedim alım, xanım!?

Ağzı-burnunu büzüb ikrahla deyərdi:

– Nə bilim, ay kişi! Ət, yeralma, soğan, çörək... Uşağımıza da quru süd alarsan!

Kişicəsinə deyərdim:

– Bəs öz südünü niyə vermirsən, ay arvad?

Əllərinin qucaqlayıb xanımyana-xanımyana deyərdi:

– İndinin uşaxları belədi da, ay kişi! Mən neynim axı?

Raziyə çox məsum idi. Anası Məsumə xanıma heç oxşamamışdı. O qadın heç qoymadı mən Raziyəylə ürəyimin istədiyi qədər oynayam. Məhəllə uşaqlarının Məsumə xanımdan zəhlələri gedərdi. Nahar çağları küçədə futbol oynamaq istəyəndə qapıya çıxıb bağırardı:

– Avara köpəyoğlanları! İndi top oynamaq vaxtıdı? Qoymursuz bir saat gözümü yumum. Gedin... gedin o tərəfdə oynayın! Bir tərəfdən şəhərimizin durumu ağır idi, bir tərəfdən də bu Məsumə xanım qoymurdu. Biz, Sulduz şəhərində yaşayırdıq. Kürdlərin dəfələrlə təcavüzünə məruz qalan şəhərimiz olduqca gərgin bir durumdaydı. Bizim uşaqlığımızın dövründə İran-İraq müharibəsi gedirdi. Sulduzsa tam sərhəddəydi. Gecələr şəhərin kürdlər tərəfdəki küçələrindən güllə səsi gələrdi. Biz güllə səsinə ana laylayı kimi adət eləmişdik. Mən dəfələrlə kürd döyüşçülərinə şəhərdə rast gəlmişdim. Necə deyərlər, başdan ayağa qədər silahlanmış halda şəhərin mərkəzi küçələrində qorxmadan oyana-buyana gedərdilər. Ancaq bunlara baxmayaraq, Sulduz heç vaxt öz doğmalığını itirmirdi. Halal torpağımız haram istəklərə uymurdu. Dayım həmişə deyərdi: "Sulduz Azərbaycanın qapısıdı, kim qoyar qapısından çaqqal içəriyə girsin".

– Dayı! Onlar niyə bizi öldürürlər? Bizdən nə istiyirlər?

Bığlarını bura-bura danışardı. Aşıqların xasiyyətidir, deyərlər. Sazına yaxın olmuş olan zaman əsəbləşsəydi, onu möhkəm-möhkəm sıxıb danışardı:

– Nə bilim, ay dayı! Heç özləri də bilmirlər. Bilənlərisə nə biz tanıyırıq, nə onlar!

– Bəs kim tanıyır onları, dayı?

– Allah, dayı, Allah!

Sonra bığından bir tük qoparıb, baxıb, puuuu – deyə püfləyərdi göyə. Söhbətin axırındasa bu sözü təkrarlayardı:

– "Öz günahımızdı, dayı, öz günahımızdı, özü yıxılan ağlamaz axı... hmmm.."

Kürdlər iki dəfə soyqırım törətdikdən sonra şəhərimizin beş faizə yaxın topraqlarını işğal eləmişdilər. İlk dəfə "Noyabr hadisələri" adlanan 1951-ci ildə kürd-assuri-erməni birləşməsi Sulduz və ətraf şəhərlərə hücum edib yetmiş mindən çox azərbaycanlını öldürmüşdülər. Həmin dövrdə bir çox Azərbaycan şəhərlərini alıb, kürdləşdirib, adlarını belə dəyişdirmişdilər. İkinci dəfəsə 1980-ci ildə iyirmi min silahlıyla şəhərə basqın edib əhalini kütləvi şəkildə qırmışdılar. O günü xatırlayanlar deyirlər ki, iyirmi minə yaxın silahlı kürd şəhərin "Top Meydanı" adlı futbol meydançasına yığışıb Sulduzu Kürdistan ərazisi kimi adlandırmış, sonrasa şəhərə saldırmışdılar. Milləti qorxudub öz ata-baba yurdundan qovmaq üçün ananın qarnından uşağı çıxarıb kabab şişiylə sinəsinə tikmişdilər. Görənlər deyir şəhərin ətrafında olan su quyularının hamısı azərbaycanlıların cəsədləriylə dolmuşdu. Böyüklü-kiçikli, insanları öldürüb quyulara atırmışlar. O dövrdə şəhərimizdə olan beş-altı yüz silahlı onların qarşısında dayanıb şəhəri təslim etmirlər. Bir neçə günlük müharibədən sonra kürdlərin orduları dağılaraq məcburən İraqa qaçıb gedir və Sulduz ikinci dəfə nicat tapır. Bizim uşaqlıq şeirlərimizin biri də bu idi:

*Gün çıxdı,*
*kürdlər qəbirdən çıxdı.*
*Gün batdı,*
*kürdlər qəbirdə yatdı!*

Mən hələ də bu şeirin mənasını bilmirəm. Hər bir sözə və ya şeirə bəlkə min məna tapıb qoşmaq olar, amma sözün əsl mənasını o günlərdə yaşayan və o faciələri hiss eliyən insanlardan başqa kimsə bilə bilməz. Yaralı şəhərimizi çox gözəl tanıyırdım. Raziyəni də uşaqlıq aləmində sevirdim.

– Raziyə! Dalı yanmış hardasaaan? Raziyəəə?

– Bəli, maman! Burdayam. Gəlirəm.

Yazıq qorxusundan tələsik durub qaçardı. Mənimsə mətbəxdən oğurladığım yeralma, soğan əlimdə qalardı!

– İt yetimçəsi! Sənə demədim evdən eşiyə çıxma? Hən? Vaveyla! Üstünə-başına bax? Çıxart, çıxart şalvarıyın görüm...

Mən divarımızın üstünə dırmaşardım. Özümə bir balaca pusqu yeri tapıb anasına əsir düşmüş xanımımı izləyərdim. Raziyənin gözüsə məni axtarardı. Gözlərindəki parıltınının nə olduğunu bilmirdim. İçində hər şey tapmaq olardı. Heç vaxt onu iynə-iynə oynamağa razı sala bilmədim. Bütün uşaqlar o oyunu oynayırdılar. Gizlin bir yer tapıb biri xəstə, birisə həkim rolunu oynayardılar. O bəhanəylə də bir-birinin filan yerlərini görərdilər. Bizsə ancaq yeralma-soğan oyunuyla keçinirdik! Belənçik vaxtları da mən əldən vermirdim. İynə vura bilmirdim, heç olmasa iynənin vurulan yerini ki görürdüm!

Otağımda oturmuşdum, çay içirdim. Mənim oturduğum otaqdan “Yeddi göz” dağı aydın görünürdü. Boş vaxtlarımı onun gözəlliyinə baxıb, çay içməklə keçirirdim. Üzü yeddi gözə dayananda, sağ tərəfində də “Sultan Yaqub” dağı dayanırdı. Ormanlı, ağac və xəzinə dolu bir dağ. Deyilənlərə görə, o dağın başında Sultan Yaqub adında bir Türk şahının qəbri var. Sultan Yaqub dağının yanındakı dərədən soyuq bir çay axardı. Sərçeşməsi də elə o dağın lap zirvəsindəydi. Mən özüm dəfələrlə oraya gəzməyə gedib həmin sudan içmişdim. Dağın sol tərəfində, İran-İraq müharibəsi şəhidlərindən beş-altısının qəbri var idi. O qəbirlərin içindəki şəhidlər müharibədə tanınmaz hala düşdükləri üçün “adsız qəbirlər” adlanırdılar. Heç kim onların kim olduğunu bilmirdi, amma bura az qala bir ziyarətgaha çevrilmişdi. İran-İraq müharibəsindən kimliyi bəlli olmayan bir çox ölülər qalmışdı. Partlayış nəticəsində insanlardan demək olar heç nə qalmırdı. Müharibə bitdikdən sonrasa bir çoxunun cəbhə bölgəsindən olub-qalan sümüklərini tapıb gətirib, dəfn eliyərdilər. Həmin sümüklər müharibədən sonra ağır günlədə hakimiyyətin dadına çatırdı. Ölkədə bir az narahatçılıq və etiraz şəraiti yaranan kimi, bir neçə tabutun içinə bir-iki dənə sümük qoyub, cəbhədən yeni şəhid tapmışıq deyə, küçələrdə özləri məcburi şəkildə çıxartığı adamlarla “təşii cənazə” eləyərək millətin fikrini yayındırardılar. Ailələr tanıyırdım ki, uşaqlarının cəsədləri əllərinə çatmırdı deyə, onların taleyindən xəbərsiz qalırdılar. Yazıqlar elə bilirdilər bir gün uşaqları sağ-salamat qayıdacaq!

Otağım çox sadə və soyuq idi. Bir kiçik miz, bir telefon, bir üzümü bağlamaq üçün qara parça, iki

oturacaq, bir kiçik şkaf, bir köhnə pənkə[1], bir də divardan asılan Xomeyni və Xaməneinin şəkli, mizimin üstündə də bir telfon aparatı, bir az kağız və qələm. Siyirməmdəsə həmişə bir tapançam olardı.

– Alo!

– Qonağımız var, Seyid.

– Kimdi, xanım Feyzi?

– Bir dənə arvad gətiriblər. Tapşırıblar işinə ciddi baxaq. Hacı dedi pərvəndəni[2] sənə verək. Özün gör nədi da.

– Yaxçı. De gətirsinlər!

Dəstəyi yerə qoydum. Gündəlik işim idi. Qız, oğlan, yaşlı, cavan. Mənim bütün sinifdən, səviyyələrdən müştərilərim var idi. Oğrusu, adam öldürəni, siyasisi. Mənim üçün onların kim olduğunun heç fərqi yox idi. Bura gələn adamlar yalnız bir şeyə görə gəlirdilər: etiraf eləməyə! İşimdən razı deyildim. Gecə-gündüz gərək avaralarla deyişib, edib-etmədiyi günahları etiraf etdirərdim. "Axı mənim nəyimə lazımdı bu gədəlik"? Hey deyirəm "bu işi atacam", amma alınmır. Boğaza qədər batmışam. Bir nəfər lazımdı mənim özümü dindiribdanışdırsın.

– Gəl içəriyə!

Məlum idi ki, qapını ayağıyla taqqıldadır. İnək oğluna deməkdən dilimə tük çıxıb. Nədənsə, buraya təzə əsgərliyə gələn cavanları göndərirdilər. Onları da tez-tez dəyişirdilər. Neçə ay bir adamın üstündə işləyib

---

[1] pənkə - vintilyator
[2] pərvəndə- qovluq

adam eləyən kimi aparıb başqasını göndərirdilər. Bu inəyin də on beş gün olmazdı gəlməyi. Yanında bir bizim qadın işçimiz xanım Feyzi, bir də bir məhbus qadın var idi. Məhbusun üzünü qara bir parçayla bağlamışdılar. Əlinin birisə işçimizin əlinə bağlanmışdı.

– Sənə deməmişəm adam kimi qapını döy?

Çıyınlərini oynadıb dedi:

– Bağışla, Seyid, day eləmərəm.

– Hə...atovun canı, day eləməzsən. Siz heç vaxt adam olmazsız. Aç əllərini görüm!

Məhbusun qandalını açdı.

– Oturt səndələ. Əlini də bağla dəstəsinə.

– Baş üstə!

Feyzi məhbusun əllərini açıb, bağladı oturacağın dəstəsinə.

– Nədi məsələ, xanım Feyzi?

– Pantürkdü elə bil, Seyid.

– Yaxçı, bildim, sağ olun. Pərvəndəsini qoyun mizimin üstünə.

Başımla əsgərə işarə elədim getsin.

– Qapını arxanca bağla.

Məhbusların oturacağının üzü, bizləri görməsinlər deyə, divara tərəf olardı. Arıq görünürdü. Oturduğu səndəl uca olduğundan ayaqları yerə dəymirdi. Duruşundan hiss elədim, o qədər də yaşlı deyil. Saçlarını "məqnəə" deyilən baş örtüyüylə örtmüşdü. Bədəninəsə uzun bir qara "manto" geyinmişdi.

– Gözüyün açım?

– Yox!

– Niyə?

– Onsuz da divardan başqa heç nə yoxdu!

– Hmmm. Elə bil təcrübəlisən haaa. Neçənci dəfəndi?

– İkinci.

– Nə üçün, harda və nə zaman?

– Nə üçünü pərvəndədən oxusaz daha yaxçı olar. Urmiyədə tutulmuşam, Təbriz zindanında üç ay qalmışam. Sonra da ev sənədi qoyub çıxmışam.

Sakit və aram cavab verirdi. Ürəyimdə dedim: “Mən belənçik qəhrəmanları çox görmüşəm. Aslan gəliblər, pişik yola salmışam! Görək iki gün sonra da belə olacaq?”

– Mən səndən soruşuram. Adam kimi cavab ver.

Udqunub dedi:

– Deyirlər ölkənin ərazi bütövlüyünə qarşı çıxmışam. Deyirlər casusam. Deyirlər....

– Yaxçı, yaxçı. Diluzunluq eləmə görüm! Deyirlərsə, deməli elədir. Pərvəndəsinin qalınlığına bax. Yəqin yekə qələtlər eliyibsən haa...hmm ... adın nədi?

– Raziyə!

– Nədi?

– Raziyə!

– Kimin qızısan?

– Qəhrəmanın.

– Hansı Qəhrəmanın?

– Taksi şoferidi. Vəlipur.

– Eviyiz harda?

– “Top Meydanı” tərəfdədi.

Sulduz kiçik bir şəhərdi. Hamı demək olar ki, birbirini tanıyır. Elə bil başıma daş düşdü. Bu qız Qəhrəman Vəlipurun qızıydı. Raziyə! Mənim uşaqlıq sevgilim. Bir böyüdüyüm, bir söyülüb, döyüldüyüm qız. Də-

fələrlə mənim üstümdə kötək yemişdi. Mənim əclaflıqlarımın cavabını vermişdi. Uşaqlıqdan qorxaq idim. Həmişə nəsə bir qələt eləyəndə tez Raziyənin boynuna atıb, aradan çıxardım. O yazıq da sakit dayanardı. Heç vaxt özünü müdafiə eləmədi. Heç vaxt elədiyimi üzümə gətirmədi. Məsumə xanımın acığına dəfələrlə onların qapılarına işəmişəm. Raziyəsə anasına demədən, şlanq çəkib, yumuşdu. Məsumə xanımgilin həyətlərinə topumuz düşəndə cırıb tulluyardı küçəyə. Ona görə də həm qapılarına işəməyi, həm də şüşələrini sındırmağı özümüzə borc bilərdik. Bütün uşaqlığım gözlərimin qabağında dirildi. Ona olan o uşaqlıq sevgisi ürəyimdə canlandı.

Deyirlər, insan günah elədikcə məhəbbət deyilən bir həqiqətdən uzaqlaşır, artıq sevə bilmir. Mən günahkar adam idim. Çoxdan idi ki, kimsəni sevə bilməmişdim. Uşaqlıqda keçirtdiyin hisslər sənin kökünü yaradır. Sənə yön verir. Bütün insanlarsa bir gün öz köklərinə qayıdırlar.

Uşaqlıq aləmində Raziyəni özümə arvad eləmək istəyirdim. Ona qarşı uşaqfason bir ehtirasım varıydı. Bir dəfə Raziyəylə "qonaq bacı" oynayanda dedim:

– Raziyə! Mənim arvad almağıma neçə yaş qalır?

Gəlin oyuncağını əlində yırğalayıb dedi:

– Mənim atam iyirmi yaşında mamamı alıb. Sənin 8 yaşın var. On iki yaş gözdəməlisən hələ.

– Raziyə?

– Hən?

– Mamayın neçə yaşı var idi?

– On yeddi yaşı .

Bu hesab-kitab məni qorxudardı. Axı Raziyə iki yaş məndən böyük idi. O hesabnan mənim arvad almaq

vaxtım çatanda, Raziyə artıq ərə getmiş ola bilərdi. Xüsusilə də Sulduz kimi kiçik bir şəhərdə qızların iyirmi yaşından sonra evdə qalması faciə hesab olunurdu. Mənim öz mamamın anası on üç yaşında babama gəlmişdi. Mamam deyir, anasının heç sinələri belə çıxmamışdı ərə gələndə. Raziyəni itirmək qorxusu mənim uşaqlığımın qorxusuydu. İndisə o burdadı. Gözübağlı oturub qarşımda. Pərvəndəni açıb şəkilinə baxdım. Raziyə, Raziyə! Niyə belə qocalmısan? Gözləri yaman çuxura düşmüşdü, çox sınıxmışdı...

Dəstəyi götürdüm:

– Haci yerindədi?

– Həyə, Seyid.

Dəstəyi yerə qoyub durdum ayağa. Titrəyirdim.

– Raziyə xanım, siz burda oturun mən indi gələrəm.

Çalışırdım səsimin titrəməsini hiss eləməsin. Birnəfəsə qapını açıb çıxdım dəhlizə. Dar və uzun dəhlizə. Sulduz zindanının ən dəhşətli dəhlizi. Buranı məhbuslar “ölüm dəhlizi” adlandırmışdılar. Burada sorğu-sual olunanların ən az cəzası ömürlük həbs idi. Ağır cinayət törədənlərin saxlanıldığı birnəfərlik kameralar və dəhlizin sonundasa mənim otağım. Demək olar ki, cəhənnəmin tən ortası. Bilmədim necə özümü Hacının otağına çatdırdım. Hacının otağı dəhlizdən aralıydı. Dəhlizin sonunda bir dəmir qapıdan keçib, sola dönüb, ikinci dəhlizi də keçməliydin. Dəhliz boyu bir pəncərə belə yox idi. Ancaq və ancaq nəmişli, soyuq və uca betonlar. Hacının qapısında belə bir yazı yazılmışdı: “İstintaq rəisi” . Qapını tıqqıldadıb içəri keçdim.

– Salam, Hacı, sənə qurban, bu arvadın məsələsi nədi?

Hacı yerində qurcalanıb dedi:

– Nə məsələsi? Niyə belə əsəbisən, Seyid?

– Əsəbi olaram da, Hacı. Arvadı arvad yanına göndərərlər. Mən onu neynəməliyəm axı? Sual soruşsam cavab verməsə, neyniyim... döyüm? Arvadı?.. Hmmm. Mən əlimi arvada nə cur qaldırım axı?.. Söz yox e, bu mənim işimdi, amma mən and içmişəm arvada əl qaldırmıyaciyam. Hacı, sən Allah, mən bundan artıq batmaq istəmirəm! Ver xanım Feyziyə...

Hacının təəccüblü gözlərindən, onda yaranan bir çox sualları oxudum. Dəfələrlə qadın məhbusları döyüb, işgəncə vermişdim. Hər nə olmasa, ikimiz də bir bezin qırağıydıq. Deyirdilər, inqilabın əvvəllərində edam olunanların başına son gülləni sıxanların biri elə bizim Hacımız olub. Əsl kopəyoğluydu. Saçını bir nömrə maşınkayla qırxdırırdı. Saqqalını bəlkə beş aydan bir təmizləyərdi. Əlində gəzən yekə dənəli təsbehi yerə qoymazdı. Əynindəki ağ köynəyinin ağ rəngi, demək olar, küsüb qaçmışdı. İkimizin də bir-birimizdən zəhləmiz gedirdi. Amma heç vaxt onu bilindirməzdik. Hacının arxivi doluydu dırnaq çəkmək, əl-ayaq sındırmaq, məhbuslara təcavuz etmək, adam satmaq və inək kimi salavat çevirib təkbir deməklə. Özü də bilirdi özünün tülkü olmağını. O qədər xayamallıqdan sonra gətirib atmışdılar bu zibilliyə.

– Ağıllı ol, Seyid! Sənə nə olub? Niyə belə özündən çıxmısan? Bu qəhbə də hamı kimi. Birinci dəfəndi bəyəm? Yuxarıdan əmr gəlib, mənlik deyil. Neçənci

dəfəsidi tutulur. “Pantürk”dü. Ziddi islamdılar bu şərəfsizlər... Buların hamısın öldürmək lazımdı...

Hacı yaman qızışmışdı. Var-yoxu xarab, qızışanda molla olub çıxırdı minbərə. Təsbehini firrıyıb tulladı mizinin üstünə :

– Seyid! Biz bu inqılaba and içmişik. Kişi, ya qadın, nə fərq eləyir... düşmən-düşməndi da. İnqilabın düşməni bizim düşmənimizdi. İmanın azalmasın... Bulara aman versən, bizi əlli-ayaqlı aparıb atarlar qəbirə. “Rəhm eliyən rəhmə qalar”, Seyid!

İstədim deyəm – “Axı qurumsaq, sən özün heç anana da rəhm eləməzsən və eləməyibsən də, buna baxmayaraq axırın bu xarabanın ortası olub”. – Bir az qabağa gedib mizinin yanına çatıb asta və qəhərli səslə dedim:

– Bura qədər ki, rəhm eləməmişik rəhmə qalaq, Hacı... bundan sorasına da Allah kərimdi!

Hacı ayağa durub gəldi mənim tərəfimə. Bir əlini çiynimə qoyub güya mehribanlıqla dedi:

– Bu bizim şəri təklifimizdi, Seyid. Get o qəhbədən nə lazimdı qopart. Kimdi, nəçidi, dostları kimdi, kimə işləyir? Başa düşürsən ki? Tapşırıblar eliyib-eləmədiyi günahları etiraf elətdirib eliyə bilsək, filmin çəkək. Dərs olmalıdı dostlarına. O ölüb, Seyid! Ölüyə can yandırma... inqilab xətərdədi, özünə yazığın gəlsin!

Əlini çiynimdən çəkib oturacağına tərəf getdi. Yeyib yatmaqdan eşşək boydaydı. Boynu dönmürdü haramzadənin.

– Heç olmasa bir nəfər xanım göndərin, mənə kömək eləsin, Hacı. Allaha xoş getməz...

İkrahla, xırıldıya-xırıldıya dedi:

– Yaxşı, get, xanım Feyziyə deyərəm gələr.

Özümnən acığım gəlirdi. Çarəsiz qalmışdım. Raziyə, Raziyə, Raziyə! İndi mən başıküllü neynəyim? O soyuq dəhliz heç vaxt gözümə bu qədər uzun gəlməmişdi. Titrəyə-titrəyə gedirdim otağıma tərəf. Hansı günahımın cavabıydı bu, Allaaah! Ömür boyu gədəlik eləmişəm, bilirəm. Ömür boyu vicdansızlıq eləmişəm, bilirəm. Amma məni Raziyə imtahanına çəkmə!

Otuz beş yaşım var. 27 il bundan qabaq bir qızı sevmişəm. Adı Raziyəydi. "Qonaq bacı" oynayardıq. Oyuncaqdan da olsa, uşaqlarımız var idi. Kiçik də olsa, təmiz bir dünyamız var idi. Xoşbəxt idik. Küçənin ən əclaf uşağıydım, amma heç vaxt onunla "İynə-iynə" oynaya bilmədim. Heç vaxt işimiz saçyolduya çıxmadı. O, gözəl idi, amma özü bunu əhəmiyyətsiz sayırdı.

Oturdum mizimin arxasında. Raziyənin ayaqları yerə çatmırdı deyə, uşaq kimi ayaqlarını oynadırdı. Pərvəndəsini açdım:

Raziyə Vəlipur. Doğum ili: 1975. Atasının adı: Qəhrəman. Cürmü (günahı – ümumi təhlükəsizliyə qarşı çıxmaq, ərazi bütövlüyünə qarşı çıxmaq, nizamın əleyhinə olan qruplarla əlaqədə olmaq, Pantürkizmi təbliğ etmək, millətə xəyanət. Bir sözlə, "müanid"![1])

Nə deyim, hardan başlayım? Bədənim əsirdi. Raziyəsə möhkəm və sakit oturmuşdu. Sanki yerimizi dəyişmişdilər. Kaş elə dəyişərdilər də! Mən Raziyəyə işgəncə verib, söz ala bilməyəcəkdim, bunu hiss eləyirdim!

---

[1] "müanid"! - dinə qarşı çıxan

– Kimə işləyirsən?

– Nə?

– Dedim, kimə işləyirsən?

– Heç kimə. Özümə.

Dik cavab verirdi.

– Özündən başqa?

– Əlimnən gəlsə, millətimə!

– Pah! Sən millətə işdiyrsənsə, biz kimə işdiyirik?

– Nə bilim? Ərbablara!

Heç inanılan deyildi. O sakit Raziyə belə dilli-dilavər olmuşdu! Onun belənçik olmağı xoşuma gəlirdi.

– Deməli, hərə bir ərbaba qulluğ eliyir da, hə? Onda sənin ərbabın kimdi?

– Mənim ərbabım yoxdu!

– Adam adı de...kimə işliyirsən?

– Sənə kim lazımdı?

– Mənə həqiqət lazımdı! Səni bu yola çəkənin adı lazımdı.

– Hansı həqiqət? Mənim kimilərin həqiqəti? Yoxsa ərbablarıyın istədiyi həqiqət?

Bir söz deyə bilmədim!

– Sən uşaqlıqda da belə hazırcavab idin? Diluzunluq eləmə görüm!

– Məndən nə istiyirsiz axı? Ailəm nigarandı. Məndən xəbərsizdilər. Dostların qoymadı zəng eliyəm olara. Diluzunluq eləmirəm... özün də bilirsən mənim günahım yoxdu...

Səsi titrədi bir az.

– Yaxcı, yaxçı! Zırıldama görüm! Bülbül kimi danışacaqsan... Hələ bir az döz.... Bizim səbrimiz çoxdu...

İndi xanım Feyziyə diyərəm, gələr səni başa salar neyniyibsən... Evlisən?

– Yox!

Sevindim!

– Niyə?

– Nə bilim!

– Necə nə bilim? Evlənsəydin, qeyri-qanuni işlər görməzdin. Elə bilirsən həyat da "Qonaq bacı"dı?

– Nəəə!? Nə qonaq bacısı? Nədən danışırsız?

O kəlmə ağzımdan qaçdı. Acığım tuturdu özümə. İçimdə nəsə bir dəyişiklik baş verirdi. Hiss elədim, əgər uşaqlığa qayıtsaydıq, heç vaxt Raziyədən ayrılmazdım. Bütün bu uzun illər həmişə yadımda olub. Onunla keçirtdiyim günlər mənim həyatımın ən gözəl günləriydi. Bağlı-bağçalı həyətimizin bir qırağına kiçik bir xalça salıb, özümüzə ev qurardıq. O günlərin ən pis xatırələri də mənimçün şirindi. Amma indiki qonaq bacının, heç də o qonaq bacıya bənzərliyi yoxdu. Ayrılıq, itirmək qədər acı deyil. Xəyanət, söyülüb-döyülmək kimi tez unudulmur!

– Heç nə? Deyirəm yəni elə bilirsən qonaq bacı oynuyursan? Bura gələn oyuna yox, ölümə gəlir... Çalış həmkarlıq eliyəsən... Həm sən rahat olarsan, həm də mən!

– Siz niyə?

– Sən elə bilirsən sizləri buralara gətirəndə mən kef eliyirəm? Xahiş eliyirəm, həmkarlıq elə. Onlar mənim kimi davranmayacaqlar ha sənnən! Nə istəyirlər elə...

– Məndən nə istəyirlər?

– Pərvəndəndə yazdıqları bütün günahları kamera qabağında etiraf eləməyi...

– Sora?

– Sorasın daa mən bilmirəm! Sadəcə, mən istəmirəm bir qadının işkəncə olmasını görəm. And içmişəm!

– Elə bilirsiz sora məni buraxacaqlar? Mən uşaq deyiləm... Otuz yeddi yaşım var... Olar məni öldürəcəklər...

– Allah kərimdi... Öldürməzlər... Hələ işgəncədən canıyı qurtar... Mən sənə görə deyirəm..

Yerindən bir az tərpənib dedi:

– Hansı günahı etiraf eləməliyəm?

Pərvəndəni açdım üzündən oxudum:

– Ümumi təhlükəsizliyə qarşı çıxmaq, ərazi bütövlüyə qarşı çıxmaq, nizamın əleyhinə olan qruplarla əlaqədə olmaq, pantürkizmi təbliğ etmək. Millətə xəyanət... Burda belə yazıblar...

– Amma mən xain deyiləm! Mən fəqət öz dilimdə yazıb oxumaq istəmişəm... Milli haqlarımı istəmişəm... Bunun harası xəyanətdi, hansı qanunda günahdı? Vallah, Quranda da millətlərin haqlarından bəhs olunub. Günah olsaydı, Allah onu azad və lazım bilməzdi!

– Azadlıq indi oturduğun yerdə yoxdu, Raziyə xanım! Azadlıq burdan eşikdədi... Küçələrdə... Mən Qurandan danışmadım, nizamın əleyhinə çıxmağından danışdım!

– Azad insan burda da azaddı, olmayansa, elə o siz dediyiniz küçələrdə də azad deyil. Azadlığı qandalnan ölçməzlər! Milləti dilindən öldürərlər... cismindən yox!

Tısbağanı ya beli üstə çevir, ya öldür, fərq eləməz... hər ikisində də ölür.

Ağzımı əyə-əyə dedim:

– Bəs nəynən ölçəllər?

– Sizin ərbablarıyızın bizim əlimizdən aldığı həqiqətnən... milli kimliknən...

Bilirdim nədən danışır. Çox rast gəlmişdim Raziyə kiminlərinə. Amma, doğrusu, bura qədər mənə "milli kimlik" deyilən şey lazım olmamışdı.

– Sənin hesabınnan heç mən də azad deyiləm ki.. həəə? Halbuki, sən əliqandallı, üzübağlı oturmusan, mənsə rahat öz mizimin arxasında oturmuşam və azadam!

– Heç inanmıram!

– Nəyə?

Yenə bir az yerində tərpənib, səsini yavaşıdıb dedi:

– Sizin azadlığınıza!

– İnanmırsan, həəə? Eybi yox, inanarsan... inanarsan... Burada çox şeyləri adama inandırarlar. Hələ üstəlik iman da gətirərsən. Millətçi gəlib, milçək gedənlər çox olub, ay Raziyə!

Yerimdə otura bilmirdim. Çox gərgin idim. Getdikcə itə dönürdüm. Ayağa qalxdım. O bilmirdi onu nə gözləyir, amma mən bilirdim. Necə olur olsun, bu etirafı ondan çıxaracaqlar. Allah lənət eləsin mənə. Vaxtında adam olsaydım, nə bilim, bir mühəndisdən, həkimdən-zaddan olmuşdum və indi bu zibillikdə quylanmamışdım. Heç bilmirəm nə oldu, burdan baş çıxartdım. Dindar bir ailədə böyümüşdüm. Xannənəm Xomeynidən ötrü ölərdi. Cümə günləri onların evlərində olsaydıq, bizi cümə namazına televiziyadan baxmağa çağırıb deyərdi :

– Bala, gəlin oturun, qulaq asın, görün “ağa” nə deyir! Axı siz niyə belə dinsiz olduz? Namaz niyə qılmırsız?

Sora da dizini döyüb mərsiyə deyib ağlayardı! Mən ki, heç vaxt bilmədim hansı mərsiyəni və niyə dilinin altında mızıldayardı. Axı tam savadsız və təhsil görməmiş bir qadın idi. Biz uşaqlar da məcbur oturub onu dinliyərdik. O da oturub Xomeyninin namazdan qabaq söhbətlərinə diqqətlə qulaq asardı.

Özüm də bilirdim, həmişəki kimi əclafliq eləyirəm. Kaş kim olduğumu ona deyə biləydim. Kaş ona yardım eləyə biləydim. Kaş o burda olmazdı. Kaş mənim işim bu olmazdı. Nə bilim! Bir çox “kaşlar” ürəyimdən keçirdi. Kaş bu “kaşlar” olmayaydı. “Ümid çarəsizlərin çörəyidir” deyən düz deyib. Mənim indi o ümid çörəyinə çox ehtiyacım varıydı. Ürəyimdə böyük bir boşluq yaranmışdı. Zindanda olmamaq güclü olmaq demək deyil. Mən guya “azad” idim, amma ölmək zəif və çarəsiz yaşamaqdan daha yaxşıdı. Güclü olmaqla hansısa bir gücə güvənib danışmağın da çox fərqi var. Fikirlərimi ürəyimin alovundan törənən bir vulkan alt-üst etmişdi. Heç vaxt bu qədər özümü kimsəsiz hiss eləməmişdim. Kimsəsizlik dost və ya ailənin olmamağıyla ölçülmür, başa düşülmədiyin zamanlar özünü tənha hiss eləyirsən. İnsanlar dağlar kimidirlər, bir-birinin yanında yaşayırlar, amma hərəsi öz tənhalığını və yükünü çiynində çəkir, hərəsinin öz dünyası var.

Nəfəsim çıxmırdı. Dünya böyda bir nisgilim var idi. Damla-damla tənhalaşdırırdı məni, damcı-damcı əridirdi... Ahh Raziyə, Raziyə! Axı sən burada neynirsən!?

Axşam gec işdən çıxdım. Hardasa saat səkkiz tamam olardı. Evə getməyim gəlmirdi, ona görə də yolüstü kafeyə gedərək bir çay içib, sulu qəlyan çəkib, fikrimi dağıtmaq qərarına gəldim. "Savalan" kafesi şəhərin ən məşhur kafesiydi. Təzədəm çayları və Xunsar[1] qəlyanlarının tərəfdarı çox idi. Gecənin yarısı da getsəydin müştərilərin çoxluğu səni təəccübləndirə bilərdi. O gün də ora qələbəlik idi. Səssizcə girib bir küncdə oturdum. İnsanlardan utanırdım. Onlarla həmsöhbət olmaqdan qaçırdım. Atam sağ olsaydı, qoymazdı müstəntiq olam. Atasızlıq adamı min yola çəkər. Kaş atam sağ olaydı.

– Salam. Xoş gəlibsən!

Qəhvəçi Məmmədin səsiydi.

– Sağ ol, ağa Məmməd.

Məmməd bir istəkan çay qabağıma qoyub dedi:

– Qəlyan verim?

Çayı qabağıma çəkib dedim:

---

[1] Xunsar - bir növ tənbəki adıdır

– Hə, Məmməd ağa. Xunsar olsun.

Məmməd qəlyanı gətirməyə getdi. Qəndqabıdan bir qənd götürüb, ağzıma qoyub, istəkanı əlimə aldım. Çayın gözəl ətri gəlirdi. Gözümü yumub bir qurtum içdim. Beynimdə fikirlər inqilab eləyirdi. Çıxış yolu axtarırdım. Düz bilmədiyin yolu getməsən yaxşıdı, çünki, heç bir yolu geriyə qayıtmaq olmur. Zaman heç vaxt geriyə işləmir. Vaxtında düz bir fikir və qərara gəlməlisən. Yoxsa elə tez gec olur ki, etiraz eləməyə belə imkanın olmur.

– Bu gün bir xanım yoxa çıxıb. Deyirlər, Ettelaat tutub, aparıb, amma mən deyirəm bəlkə kürdlər qaçırdıblar. Xəbərin var sənin?

Məmməd idi. Qəlyanı mizin üstünə qoya-qoya danışırdı. Qəlyanın şlanqını əlimə alıb qəlyanın arxasında gizləndim.

– Yox, ağa Məmmməd. Xəbərim yoxdu. Kimin qızıydı?

Barmağıyla üzünü qaşıya-qaşıya dedi:

– Qız ki, demək olmaz... qırxa yaxın yaşı olardı... Qəhrəman Vəlipurun qızıdı. Evləri Top Meydanı tərəfdədi. Yazıxlar səhərdən min dəfə ölüb-diriliblər. Yeri-göyü axtarıblar... Deyirlər, qızın birinci dəfəsi deyil yoxa çıxır. Allah axırın xeyir eləsin!

Sanki heç nədən xəbərim yoxdu, dedim:

– İnşallah tapılar, Məmməd ağa. Nigaran olmuyun...

Məmməd ağa gedə-gedə dedi:

– Tapılsın da... nə deyirəm ki! Gündə mini itir, biri tapılır. Bəlkə o bir nəfər bu qız oldu!

Məmməd çox xoşbəxt adam idi. Sadə və səmimi bir həyat sürürdü. Ona paxıllığım gəlirdi. Arzu elədim, kaş onun yeridə olardım. Öz şəhərdaşlarının içində otu-rub tülkücəsinə özünü pak göstərmək xoşbəxtlik sayıla bilərmi?

O gün yeddi baş qəlyan çəkdim. Qəlyanın suyu mənim rəngim kimi sapsarı olmuşdu. Ayağa durub pu-lu mizin üstünə qoydum. Qapıya tərəf getdim, Qapıdan çıxanda Məmməd dedi:

– Darıxma ha... tapılar... hər itiməyin bir tapılması da olur.

Gülümsəyib sallana-sallana evə tərəf getdim. Uşaqlıqda bu küçələrdən keçəndə elə bilərdim bulud-ların üzərində yeriyirəm. O qədər özümü yüngül və xoşbəxt sayırdım ki, elə bilirdim istədiyim zaman göyə uça bilərəm, elə bilirdim istəsəm lap uzaqlara tullana bilərəm. Oxuya-oxuya, atıla-atıla buralardan keçərdim. Amma indi elə bil torpağın altında yeriyirəm. Özümü o qədər ağır və yorğun hiss eləyirəm ki, hər addımıma sanki bir ilimin enerjisi sərf olunur. Həvəssiz, ümidsiz və sevgisiz yaşayıram. Elə bilirəm indi küçələr ağız açıb məni udacaq. Küçələrdən qorxuram. Divarlardan qorxuram, hər şeydən qorxuram... Çox qorxaq olmu-şam!

Hələ on yaşıma çatmamışdım. Atam köhnə solçulardan idi. Onun dediyinə görə, adamı uşaqlıqdan əziyyət çəkib, işləməyə öyrətməlidilər. Ona görə də uşaqlıqdan atamın mağazasında işləyirdim. Boş vaxtlarımı şəhərin ən gur meydanı – "Jandarmeri" meydanında kitab satmaqla məşğul olardım. "Jandarmeri" meydanının yuxarı hissəsini, yəni Xana[1] şəhərinə gedən küçələri kürdlər vaxtilə işğal eləmişdilər. Atam mənə kiçik bir qırmızı rəngli əl-arabası düzəltmişdi. Arabanın qabaq hissəsində yazılmışdı: "Səyyar kitabxana". Hər gün arabanı min müsibətlə sürərək özümü "Jandarmeri" meydanına çatdırıb, kitabları yerə düzərdim. Uşaqlığıma baxmayaraq kitabları yaxşı tanıyırdım. Şəhərin ən gizli və siyasi kitabları demək olar ki, məndən alınardı. Onları kiçik bir qutuya yığıb üstündə oturardım. İstəyən olanda cəld durub kitabı götürər və yenidən qutu-

[1] Xana -Sulduza yaxın bir şəhərin adıdır

nun ağzını bağlayıb üstündə oturardım. Öz müştərilərimi tanıyırdım. Qıraq adama kitab satmazdim. Ya özü tanış, ya da tanış adam göndərmiş müştəri olmalıydı. Yoxsa risk eliyib o kitabları satmazdım. Həmin dövrdə mənim satdığım kitbları kimin əlində tutsaydılar özünü də, ailəsini də məhv eləyərdilər.

– Marksın "Kapital"ı var?

Bu, Həjirin səsiydi. O zaman 16 -17 yaşı olardı. Kürd idi. Bunu ləhcəsindən və geyindiyi paltarlardan da çox rahat bilmək olardı. Hər cürə müştərim var idi. Müxtəlif səviyyələrdə olan oxucular mənə müraciət edirdilər. Dini kitabların alıcılarından tutmuş siyası və kriminal kitabların alıcısına qədər. Uşaqlıq günlərim İran inqilabı dövründə olduğu üçün, müştərilərimin çoxu dini kitabları almağa üstünlük verirdilər. Çünki solçuların hamısını ya güllələmişdilər, ya zindandaydılar, ya da müharibə bölgəsinə göndərmişdilər. Yadıma gəlir ki, hardasa 20-25 yaşında bir oğlan gəlib həmişə Xomeyninin şəkilini məndən istəyərdi. Mən demək olar ki, məhz onun üçün gedib, İmamın şəkilini tapıb gətirib, satışa qoyardım. Hətta İmam ölən günü həmin oğlanı küçənin ortasında atası ölübmüş kimi zar-zar ağlayan gördüm. Az qalırdı özünü öldürsün. Biz ona gülüb, doluyardıq. Amma bizim bu işimiz heç nəyi dəyişmirdi. Həmişə özümdən soruşardım: "Axı niyə türk oxucuları İmamın[1] şəkilini və risaləsini[2] almağa gəlirlər, amma bunlar qadağan olunmuş kitabların alıcısıdılar?"

Həjir qabaqlar bizim məhəllədə yaşayırdı, ona görə də ona etibar eliyə bilirdim.

---

[1] İmamın - İran inqilabının rəhbəri

[2] risaləsini - müctəhidlərin şəriətlə bağlı kitabları

– Var.

– Neçəyədi?

– Yüz əlli tümən.

– Əlli tümənim çatmır!

– Canın sağ olsun. Sora gətirərsən!

Ən siyasi kitabları alardı. Yaşının azlığına baxmayaraq, bu kitabları çox rahatlıqla oxuyub başa düşə bilirdi. Kürd millətçisiydi. Kürdüstanın müxtariyyətini arzu eləyirdi. Atası "Peşmərgə" deyilən bir qrupun üzvü olduğu üçün tutuqlanıb asılmışdı. Özünü atasının yolunun davamçısı bilirdi. Mən onda bu işləri anlayacaq qədər böyük deyildim. Hələ bu şeyləri yaxşı başa düşmürdüm. Mənə atasından və arzularından danışmışdı. Mən ona – "Müharibəylə nəyəsə çatmaq olmaz." – sözünü deyəndə, o cavab verərdi:

– Müharibə azadlığa aparıb çatdırmasa da, azad insan yarada bilər!

Bu sözün mənasını atamdan soruşmuşdum. Atamın fikrincə: "Müharibə hansısa bir yerə aparıb-çatdıra bilər, amma hər hansı bir azadlığın yolu müharibədən keçirsə, o yolun sonu elə diktaturaya gəlib çıxacaq. Yəni kimlərsə də səndən qurtulmaq üçün səninlə müharibə aparacaqlar. Güclü olmaqla haqlı olmağın fərqi çoxdur!"

Doğrusu, atamı haqlı bilirdim. Nəsə ürəyim "Həjir düz eləmir" deyirdi. Məncə, nə qədər ki, əlindəki ağacla iti döyməmisən, o ağacın nə qədər təhlükəli olduğunu bilmədiyi üçün səndən qorxacaq. Amma döyəndən sonra ağacın nə qədər ağrıdacağını bilib səndən qorxmayacaq! İnsan itdən yox, onun bilib başa düşməyindən qorxmalıdır! Cahil özünə ziyan vurur, ağıllı düşməninə! Müharibədən zəhləm gedirdi. Nəyisə itir-

məklə nəyəsə çatmağı qəbul eləmirdim. Müharibə "ölüm" və "itirmək" deməkdi. Ayrılıq ölüm deyil, amma ölüm həm ölümdür, həm də ayrılıq.

Saat heç səhər beş olmazdı. Həyətimizin qapısı çox şiddətlə döyülürdü. Hamımız yuxudan diksinib həyətə qaçdıq. Qapını mən açdım və çox təəccübləndim. Həjirin anasıydı. Çox gərgin görünürdü. Bütün bədəni əsirdi. Tələsdiyindən çadrasını başayaq örtmüşdü. Dedi:

– Babıt limala? Karım həyə?[1]

Səsində qorxu və kədərin qarışığı olan bir hiss var idi. Atamı istəyirdi.

– Hə... burdadı... indi gələr... ataaa!

Atam evə girən pillələrin üstündən dedi:

– Gəldiiim. Kimdi?

– Həjirin anası.

– Kim?

Atam sanki bu sözü eşidəndə bir az şok oldu. Gecənin bu vaxtı, Həjirin anası! Sürətlə özünü qapıya yetirdi.

– Salam əleyküm. Bə qapıda niyə? Buyurun içəriyə. Nə olub gecənin bu vaxtı buraya gəlibsiz?

Atam əliylə şalvarını düzəldə-düzəldə danışırdı. O qədər tələsmişdi ki, şalvarının kəmərini bağlamağa vaxtı olmamışdı.

Həjirin anası özünəməxsus ləhcəsiylə dedi:

– Həjiri tutublar... qorxdim evimizi axtaralar... ona görə kitablari buraya gətirdim...

---

[1] Babıt limala? Karım həyə? - kürdcə bu mənanı verir: "Atan evdədi? Ona sözüm var."

Qadın başıyla bir az o tərəfdə yerə qoyduğu qutuya işarə eləyib sızıldıya-sızıldıya davam elədi:

– Ərimi də bucürnəsi şeylərə görə öldürüblər... bu kitablari sənin oğlundan alib... özi buni dedi.

Atam bir kitablara baxdı, bir mənə.

– Yaxşı narahat olmayın... çəkilin o yana... icazə verin...

Gedib qutunu götürüb içəriyə gətirdi. Qoydu həyət qapısının arxasına. Sonra da Həjirin anasından soruşdu:

– İndi nə olacaq? Haçan tutublar?

Qadın gözünün yaşını astaca sildi. Çalışırdı ki, səsi titrəməsin.

– Axşamüstü mənə xəbərin verdilər. Xiyabandan tutub apariblar. Siz onun atasının başına gələni bilirsiz. Qorxuram onu da asalar...

Davam eləyə bilmədi. Ürəyinin döyüntüsünü sinəsinin üstündən hiss eləmək olurdu. Meyid kimi ağarmışdı. Atam onun bu vəziyyətini görüb mənə dedi ki, su gətirim. Tələsik qaçıb bir istəkan su gətiridim. Qadın suyu içib durub getdi. Biz qaldıq, bir də bir qutu yasaq kitab. Həmin gecə o kitabları həyətimizdəki kiçik bağçada quyladıq. Mən sonralar da həmin bağçaya müqəddəs yer kimi baxırdım. Elə bilirdim orada nəsə olacaq, nəsə qeyri-adi bir şey göyərəcək. Atam həmişə deyərdi: – "Kitabın quylandığı yerdən inqilab göyərər!" Mən ondan inqilabın nə olduğunu soruşanda cavab verərdi: – " Oğlum, inqilab millətin dirçəlişə doğru üsyanının kor-koranə formasıdı. Həmişə də millətin könlüncə olmur. Yüz il inqilab etdik, üsyan etdik, amma xalqın inqilabını xalqdan alıb onun öz başına çaldılar. Bunun

səbəblərini sənin kimi uşaqlar böyüyüb araşdırmalıdılar.”

Bir neçə ay sonra bildik ki, Həjir asılacaq. Gözləyirdilər onun 18 yaşı tamam olsun və sonra assınlar. Onun cürmü ölkənin bütölüyünə qarşı silahlı mübarizə aparmaq idi. Həjir “müharib”[1] elan olunmuşdu. O, asılan günü heç unutmaram. İnsan beynində və ürəyində iz buraxan heç nəyi unuda bilmir. Məktəbdəydik. Məktəbin bütün uşaqlarını həyətdə bir sıraya yığıb dedilər ki, bir məhbusun məktubunu sizə oxuyacağıq. Guya Həjir tövbənamə yazıb göndərmişdi. Bizlərsə onu eşidib dərs almalıydıq. Məktubu məktəbin direktoru bizlərə oxudu. İndi də qulağımdadı. Həjir səhv elədiyini etiraf etmişdi. Bütün məktub boyu peşmançılıq hissylə dolu cümlələr var idi.

Mən Həjiri yaxından tanıyırdım. Bu cümlələr onun deyildi. Yalnız bir neçə cümlə o məktubun içində diqqətimi çəkdi, bildim ki, yalnız bu sözlər onun sözləri ola bilər: “Ata, ən yaxın zamanda sənə qovuşacam. Anamın təkliyinə and olsun, əlimdən gələni elədim!” Həjirin o məsum gözləri gözümün önündə canlandı. İnqilabçıdan çox bir sülhsevər filosof kimi danışardı. Yaman kövrəlmişdim. Direktor məktubu oxuya-oxuya ətrafımdakı uşaqların sıxıla-sıxıla ağladıqlarını görürdüm. Demək olar ki, hamı ağlayırdı. “Uşaqlar, mən azadlıq üçün döyüşdüm və indi də zindanda ölüm günümü gözləyirəm. Mən indi bilirəm ki, insan oxuduğu

---

[1] “müharib” - din və Allaha qarşı silahlı mübarizə aparanlara “müharib” deyirlər

kitablar qədər azad, ideologiyasının böyüklüyü qədər böyükdü. Mən bu gün dar ağacından asılacam, amma kitablar və ideologiyalar həmişə olacaq."

O gün nə qədər ağladığımı bir Allah bilir. Gözümdən sel kimi yaş gedirdi. Onun o yaralı və mənalı məktubu hamını ağlatmışdı. Ən dəhşətlisi odur ki, məktubu oxuyandan sonra bizi avtobuslara yığıb onun və iki başqa adamın asılma mərasiminə baxmağa apardılar. Sulduzun "Serahi" deyilən bir yerində, daha doğrusu şəhərdən bir az qıraqda, açıq bir meydanda asılacaqdılar. Çox adam o edama baxmağa gəlmişdi. Edam mərasimində dəfələrlə olmuşdum. O adamları görəndə özümdə fikirləşirdim ki, "axı niyə insanların ölümünə baxmağa hamı gəlir, amma ehtiyac olanda biri də tapılmır!?" Meydanın ortasında üç dar ağacı düzətmişdilər. Elə bil dünən idi. O üç nəfəri gətirəndə bütün camaat vəlvələyə gəldi. Bir çoxları onların asılmağından sevinirdi. Axı dolayı yolla baxanda, onlar İranın parçalanmasına deyil, Azərbaycanın ərazisinə iddialı adamlar kimi tanınırdılar. Ona görə də camaat Həjiri və dostlarını hoya basırdı.

Həjir sakit görünürdü, amma dostlarının biri demək olar ki, asılmaqdan öncə ölmüşdü. Leşini gətirib dar halqasını boynuna saldılar. İkincisininsə tükləri biz-biz durmuşdu. Məlum idi ki, ölüm qorxusundan ölüm halına düşüb! Üzü mənə tanış gəldi. Bir az da diqqətlə baxdım. Aha! Yadıma düşdü. Bir neçə ay qabaq Sulduzun kürdlər məhəlləsi deyilən bir yerində dondurma yeməyə getmişdim. Axşam vaxtlarıydı. Bir neçə kürd də "paludə" deyilən bir desert yeyirdi. Fikrim uşaqlıq

aləmində gəzirdi. Ancaq o kişilər qabağımdaki mizdə oturmuşdular deyə, gözüm onlara sataşırdı. Kürdlərə məxsus olan və olduqca gen bir paltar geyinmişdilər. Paltarın altındaki silahları hiss olunurdu. Deserti yeyib, pulu vermədən getmək istədilər. Mağaza sahibi onlara etiraz edib – "pulumu verin" – dedi. Onlarsa çox rahatlıqla silahlarını çıxarıb mağazanı gülləbaran etdilər. Dedilər: – " Bu da pulun" – və çıxıb getdilər. O gün çox qorxmuşdum. Bu hadisələri Həjirə deyəndə, o həmişə özünə filosof qiyafəsi verib deyərdi: "Biz kürd millətinin azadlığı uğrunda döyüşürük, silahısa yalnız düşmənə tuşlayarıq. O silahlı kürdlər bizdən deyillər. İranin satqınlarıdırlar."

Onları təpiklə də olsa dar ağacına tərəf aparıb ipi boyunlarına saldılar. Məhkəmənin hökmünu oxuyandan sonra göyə qaldırdılar. Həjir azadlığı və ideologiyalarıyla birlikdə öldü. Camaatı fışqa səsi götürmüşdü. Bir nəfər dedi: "Üç kürd azaldı!" Dostusa cavabında dedi: "O qədər çoxdular ki, yüz-yüz assan da bitməzlər." Kürdlərdə bir neçə arvad alıb, sonrasa hərəsindən bir neçə uşaq olması adi bir hal idi. Ona görə də sayları olduqca sürətlə çoxalırdı. Kürdlər dünyaya "Hər ailədən bir uşaq vətənə qurban verilməlidir" şüarıyla uşaq gətirərdilər. Heç vaxt vətəni və dövləti olmayanların vətənə sevgisi, vətənlilərdən daha çox idi. Sulduz türk şəhəriydi, tarixlər boyu da belə olub, amma biz onu hardasa saxlaya bilməmişik. Kürdlərsə bizim torpağımızda öz uşaqlarına vətənpərvərlik dərsi keçirdilər!

Polislərin biri mikrofonun arxasına keçib camaaata xitab elədi: “Ay camaat, kimin nə kəffarəsi[1] yəni var tullasın.” Hərə əlini cibinə salaraq dəmir puldan-zaddan çıxarıb Həjirgil tərəfə tulladı. Mən də o zamanın puluyla iki tümən çıxarıb-tulladım. Çox təsadüfi şəkildə pul gedib düz Həjirin üzünə dəydi. İndi də bunun sirrində qalmışam, mənim pulum necə oldu ki, onun üzünə dəydi?! Axı mən o qədər də sürətlə atmamışdım...

Evə qayıdanda atama gün ərzində olanları danışdım. O kişilərin sözünü də təkrarladım. Atam əlini başıma çəkib dedi: “Oğlum, Həjir bizim millətimizin düşməniydi. Amma ziyalı və ağıllı bir düşmən idi. Hörmətin saxla... yadında olsun ki, diktator türkə də, kürdə də eyni gözlə baxır!” Ancaq sonralar mənə sübut oldu ki, diktator heç də hamıya bir gözlə baxmır. Həmişə hansısa millətin vasiyəsiylə başqa millətləri əzməyə çalışır. Hətta ən ideoloji diktaturalar da hansısa bir milli faşizmin əsasında qurulublar. Din və ya demokratiyanın ikisi də pərdə kimi hansısa pislikləri örtmək üçündür. Atama pulu onun üzünə çırpdığımı deyə bilmədim. Həjirin hörmətini edam günü saxlaya bilməsəm də, kitablarını bağçada, sözlərinisə beynimdə saxlamışam!

---

[1] kəffarəsi - dövlət tərəfindən edam olunanlara tullayırdılar. Guya yığılan pul kasıblara paylanacaq və beləliklə, onların günahlarının bağışlanmasında kömək olacaq.

Ən sevdiyimiz işlərdən biri, gedib Cabbar və Bağdagülə baxmaq idi. Cabbar və Bağdagül ər-arvad idilər. Şəhərin tanınmış dəliləriydilər. Cabbar vaxtilə xan olubmuş. Özünün neçə parça kəndi və hektarlarla əkin sahələri varmış. Eşitdiyimə görə, uşaqları da olub, amma hökumət Cabbarın torpaqlarını alandan və onu dəli elədikdən sonra həm arvadı, həm də uşaqları onu tərk etmişdilər. Bağdagül elə anadangəlmə ağıldan kəm olub. Cabbar tək olmasın deyə, onları evləndirmişdilər. Bu iş həm Allaha xoş gedirdi, həm də Cabbara! Hər axşam gəlib küçəmizin başında dayanıb, bağıra-bağıra hökuməti söyməyə başlayardılar. Cabbar söyərdi, Bağdagülsə başını yelləyərək Cabbarın sözlərini – “həyə, həyə” – deyə təsdiq eləyərdi. Cabbarın adını çaşıb çağırsaydın pis günə qalardın. Əlindəki dəmir əsasını elə fırlayıb arxanca tullayırdı ki, bəxtin gətirməsəydi mütləq haransa sınardı. Cabbar bir-iki dəfə bax beləsinə əsa tullayıb. Sol əliylə çöqənininindən[1],

[1] çöqənininindən - əsa

sağ əliylə də Bağdagülün əlindən yapışardı. Mən o səhnəni görüb Raziyənin əlindən yapışıb deyərdim:

– Raziyə?

– Hə

– Mən Cabbar olsaydım, sən mənnən evlənərdin?

Təəccüb və sual dolu baxışlarla üzümə baxıb deyərdi:

– Hə... amma sən də məni heç vaxt tək qoyma... yaxşı?

Elə bil dünyanı mənə verərdilər. Əlini sıxıb Cabbarla Bağdagülə göz dikərdim.

– Heç vaxt.. heç vaxt səni tək qoymuyacam, Raziyə!

Fəlsəfənin və hikmətin nə olduğunu bilirəm. Hətta çox şeylər barədə bir romanlıq fəlsəfə uydura bilərəm. Amma çox hadisələr var ki, onların nə hikmətini, nə də fəlsəfəsini başa düşə bilirəm. Bəlkə heç başa düşmək də lazim deyil. Mən mühitin məhsulu olaraq, yarı dindar, yarı materialist olduğum üçün şəraitlə heç vaxt tam razılaşa bilmirdim. Hiss eləyirdim havadayam. Həmişə darıxırdım, nəyisə gözləyirdim. Hər an elə bilirdim hansısa bir hadisə olacaq və hər şey dəyişəcək.

Raziyənin gözləri bağlıydı. Əllərini isə arxadan bağlayıb oturacaqda oturtmuşdular. Xanım Feyzi əl-qolunu ölçə-ölçə danışırdı. Məlum idi ki, onu hədələyir. Raziyə sakit görünürdü.

– Salam!

– Salam, Seyid.

– Nəyisə etiraf eliyib?

– Yox. Gönü qalındı. Amma eybi yox. Dilə gələcək gec-tez...

Raziyə doyunca döyülmüşdü. Bunu onun qanamış və qızarmış üzündən bilmək olardı. Özüm bilərəkdən bir az gec gəldim ki, onu döyməyəm və döyülməyini görməyəm.

Otağın dibindəki mizin üstündə işgəncə alətləri var idi. Alnıma soyuq tər gəldi. Ürəyimdə bu qəhbə Feyzini söyürdüm. Şah dövründə tanınmış fahişə olmuşdu. Ən səviyyəsiz kafelərdə mahnı oxuyub, keflilərin gucağında böyümüşdü. Bir çox adamları bədbəxt eləyib, ailələrini dağıtmışdı. Deyirlər, hətta vaxtilə qadın alveriylə də məşğul olub. İnqilabdan sonrasa tövbə edərək adamları günahkar olduqlarına etiraf etdirməklə məşğul olub! Keçmişini unuda bilərsən, amma onu başqasına məcbur unutdura bilməzsən. Ona görə də bu qadının düşmənləri olduqca çox idi. Eşitdiyimə görə, inqilabın repressiya dövründə öz ərini solçu olduğu üçün İranın milli təhlükəsizlik orqanlarına satmışdı. O dövrdə kim bir nəfəri dövlətə satsaydı, ona həm yaxşı bir iş yeri verərdilər, həm də özünü hər hansı bir günahına görə güllələməzdilər. Bir çox solçular bu yolla öz canlarını götürüb Avropaya qaçmışdılar. Feyzinin ərini güllələmişdilər. Yenə də eşitdiyimə görə, əri çox savadlı bir insan olmuşdu. Elə inqilabın əsasını qoyan insanlardan biriymiş. “İnqilab öz balasının başını yeyər” sözü bu ailəyə tam uyğun idi.

Məncə, inqilab yalnız öz balasının başını yeməz, bəlkə həm də özünə ögey balalar da seçər. Xalqın içindən olan, amma millətə heç bir aidiyyatı olmayan ögeyləri gətirib xalqın başında oturdar. Xanım Feyzi indi islamdan və Allahdan elə danışır ki, bilməyən elə bilər

imam balasıdı. Fahişənin içdiyi and, tülkünün yuxusuna bənzəyər. Nə dərin olar, nə də inandırıcı.

Bir neçə addım qabağa getdim. Raziyənin başının üstündə dayandım. Bir an gözüm qaraldı. Onu qucaqlamaq istədim. Etiraf eləmək istədim ki, Raziyə, günah səndə deyil, məndədi, amma balalarım gözümün qabağına gəldi. Hacının o murdar və rəhmsiz süfəti gözümün qabağına gəldi. İyləmək istədim Raziyəni. Uşaqlıqda bu işi çox görmüşdüm. Onun bədəninin həmişə özünəməxsus iyi olardı. Amma aramızdakı məsafəyə görə o iyi hiss edə bilmədim.

– Seyid, neynirsiz?

– Heç.. heç...

Feyzi şübhələnə bilərdi. Axı onun kimilərin burnu yaxşı işləyir. Elə onu bura iy çəkməkdən ötrü tullamışdılar. Dərindən bir nəfəs alıb, Raziyəyə dedim:

– Raziyə xanım! Sənin böyüdüyün məhəlləni yaxşı tanıyıram. Atanı da yaxşı tanıyıram. Çox mədəni bir ailədə böyümüsən. Özün ali təhsilli bir xanımsan. İstədiyimizi elə. Biz özümüz də istəmirik sənə hörmətsizlik eləyək.

Raziyənin danışmağa halı yox idi. Başı sinəsinin üstünə düşmüşdü. Başını dik tutmağa çalışdı.

– Məni və ailəmi tanıyırsızsa, deməli bilirsən, mənim heç bir günahım yoxdu. Məni buraxın, insafınız olsun.

Səsinə qurban olum, Raziyə! Elə sızıldaya-sızıldaya bu sözü dedi ki, ürəyim parçalandı.

Feyzi gedib mizin üstündən kəlbətini gətirib mənə dedi:

– Yaxşı ki, gəldiz, Seyid. Bir-iki dırnağı çəkilsə ağlı başına gələr.

Kəlbətini mənə tərəf uzatdı. Əslində mənim şərəfimi sınağa çəkdi. Bilmirəm alın yazısıdı, yoxsa öz elədiklərimdi başıma gəlir. Ata-babalarımız adı özləri qazanar, alın yazılarını da özləri yazardılar.

Əlim əsirdi. Çalışırdım Feyzi bunu hiss etməsin, amma bilirdim, o bunu hiss eliyəcək. Kəlbətini əlimə aldım, əlim də kələfçəyə dönmüşdü sankı. Qurumuşdum. Xanım Feyzi Raziyənin ayaqlarını oturacağa bağladı və baş barmağını iki barmağıyla ayırıb mənə dedi:

– Yallah, Seyid! Gəl bu bülbülü oxutduraq!

Həyətimizdəki gilas ağacına həmişə bülbüllər qonardı. Bir dəfə onların birini daşla yerə salmışdım. Elə bu işimə görə də Raziyə bir həftə mənimlə danışmadı.

Raziyəyə tərəf hərəkət elədim. Kəlbətini əlimdə elə sıxmışdım ki, az qala ətimə girəcəkdi. Bir tərəfdən uşaqlıq sevgilim Raziyə və şərəfim, başqa tərəfdənsə işim və ailəm. Bilirdim, sonunda hansınısa seçməliyəm.

– Baş barmağından başla, Seyid!

Dilimin altında söyə-söyə kəlbətini Raziyənin baş barmağına tərəf apardım. Özümü söyürdüm – "ay şərəfsiz, ay satqın, çək, çək"!

Gərək kəlbətinlə dırnağından yapışıb var gücümlə çəkib çıxarardım. Birinci dəfəm deyildi bunu edirdim, amma bu, tamamiylə fərqli bir şey idi. Dırnağından yapışdım, gözlərinə baxdım. Üzü bağlıydı, amma nəfəs-nəfəs[1] vurması hiss olunurdu. Dilinin altında nəsə desə

---

[1] nəfəs-nəfəs - təngənəfəs olması

də, başa düşmürdüm nə deyir. Ürəyim qan ağlayırdı. Əclaf idim. Olmasaydım burda neynirdim. Bir əlimlə Raziyənin ayağından yapışdım və gözümü yumub çəkdim. Ayağı titrədi. Uşaqlıqda onun əlinə belə toxunmağı özümə uğur sayardım. Ayağına heç vaxt toxuna bilməmişdim. Sonunda toxundum, amma! Raziyə bərkdən – "Ana" – deyərək çığırdı. Dırnağın yerindən qan axırdı. Bir dırnağa baxdım, bir də cəllad Feyziyə. Feyzinin üzündə bir razılıq əlaməti var idi. Raziyə ağlayıb-sızıldayırdı. Yadıma gəldi ki, uşaqlıqda anası onu döydüyünə görə acığımdan evlərinin şüşələrini daşa basmışdım. İndi biri lazim idi məni daşa bassın. Feyzinin bağırtısıyla özümə gəldim:

– Hə...? Ağrısı var? Hələ bu harasıdı, bütün barmaqlarını çəkəcəyik. Danış görüm... danış...

Raziyənin saçlarından yapışmışdı və silkələyərək hədələyirdi. Raziyə özünə bürünmək istəyirdi, amma əl-qolu bağlı olduğundan çox dəhşətli şəkildə zarıldayırdı.

– Mənim günahım yoxdu... Axı mən neynəmişəm belə eliyirsiiiiz?

– Pantürklərə gedib qoşulubsan. Hələ deyirsən neynəmişən? Olar kafərdilər, baaa, kafər. Sənin kimi qəhbələrdən çox gəlib bura gedib. Hələ darıxma!..

İçim ağlayırdı. Raziyənin bu gününü görməməliydim. Bu Feyzi də lap yırtıcı heyvan kimi onun üstünə düşmüşdü. Raziyə qırıq-qırıq dedi:

– Axı türk nədi... pan nədi? Mən... mən türkəm, amma... pan deyiləm. Bəs siz... bəs siz nəsiz? Türk deyilsiz?

Türküydük! Bu sözlə Feyzininin yaralı yerinə toxundu. Raziyə hələ bilmirdi ki, satılmış insanın milliyyəti olmaz. Millət anlamını insanın ruhu daşıyar, cismi yox. Bunu kitablardan oxumuşdum.

– Görürsən? Görürsən, Seyid? Hələ bizə dərs öyrədir bu qəhbə! Gəl, Seyid, gəl, ikinci barmağını çək adam olsun!

İkinci barmağını çəkəndə Raziyə huşdan getdi. Ağrıdan dili və dodağını dişləmişdi, ona görə də dodağından qan süzülürdü. Feyzi özünü Raziyə oturduğu oturacağa sökəmişdi ki, Raziyə yerə yıxılmasın, amma qəfildən mənə baxıb özünü qırağa çəkdi. Raziyə oturacaqla bilikdə yerə yıxıldı. Bağırdım:

– Neynirsən, Feyzi?

Əllərini kəmərinə qoyub dedi:

– Nədi, ürəyin yanır, Seyid?

– Ürəyim yanmır, bu qız huşdan gedib axı. Qoy ağlı başına gəlsin, sora eliyərsən! Əh...

Artıq dözə bilmədim. Kəlbətini yerə atıb durdum ayağa. Əllərim Raziyənin qanına bələnmişdi. Raziyə yerdə titrəyirdi. Bu dəhşətli mənzərənin yaradanı mən idim, Raziyənin uşaqlıq sevgilisi! Otaq başıma fırlanırdı. Taleyi baltadan asılan ağac, sonunda torpaqla öpüşəcək, başqa heç bir yol yoxdur. Feyziyə dedim onu aparsın kamersına. Özüm də uduzmuş adamlar kimi Hacının otağına tərəf getdim.

Papırı fikirləşirdim. Papır Sulduzun qırağından keçən Gedər çayının üzərində qurulmuş körpünün altında yaşayırdı. Özünə köhnə taxta və çiy kərpiclə balaca bir tövləsayağı ev düzəltmişdi. Hər adamla danışmazdı. Özünə görə böyük bir sirrə çevrilmişdi. Bütün uşaqlar demək olar ki, Papırdan danışanda sanki böyük bir sirdən danışırlar kimi, mübahisə eləyərdilər. Kimisə ondan qorxur, kimisə onu doluyub gülərdi. Evində olmuşdum. Həm Papır olmayanda gizlicə dostlarımla gedib evinə girmişdik, həm də özü olanda oraya yaxınlaşmışdım. Dəli olmağına baxmayaraq çox mehriban və səmimi insan idi. Doğrusu, mən onu qətiyyən "dəli" adlandıra bilməzdim. Uca və kürəkli bir kişiydi. Saqqalından və pərişan saçından bilmək olardı içinin halını. Şəhərimizdə nakam sevgilərə "Papır sevgisi" deyirdilər. Papır öz əmiqızısına aşiq imiş. Əmisi öz qızını Papıra vermir və bir çox hadisələrdən sonra qız ölür. Papır bizə bu hadisəni dəlisayağı tərifləmişdi. Deyirdi:

– Əmiqızımı başqasına ərə verdilər. Mən onu dəli kimi sevirdim. O da məni sevirdi. Özü mənə bunu de-

mişdi. Bax... (Əmiqızısının yazdığı məktubları göstərərdi). Hələ çoxunu itirmişəm. Görürsən! Burda yazıb məni nə qədər sevirdi.

Həvəslə məktublara baxıb soruşardıq:

– Səni sevirdisə, başqasına niyə ərə getdi? Getməyəydi də...

Saqqalını qaşıya-qaşıya cavab verərdi:

– Hərdən insanın gücü çatmır nəyisə dəyişməyə. Axına qarşı çıxa bilərsən... amma... amma haqlı olsan da... uduzarsan!..

– Sora nə oldu, Papır?

– Toy gecəsi ərini bıçaqlyıb mənim yanıma qaçmışdı... gəlin paltarında gəlmişdi... çox qorxmuşdu.. elə bilirdi mən ona arxa dura biləcəyəm... atasıgil də arxasıca bura gəldilər... çox əsəbiləşmişdilər...

Papır köynəyinin qolyla gözlərinin yaşını silib davam elədi:

– Onu qucağımda öldürdülər... ərinin qardaşları gülləylə vurdular... gözü gözümə baxa-baxa öldü...

– Sən neynədin, Papır?

Gözünü uzaqlara dikərdi. Gözünün dibindəki yaş astaca süzülüb yanağına axardı.

– Mən... mən bir iş görə bilmədim. Heç nə eliyə bilmədim... mən də onunla bərabər öldüm... adım Piruz idi... "Ağa Piruz" deyirdilər mənə... itirdim, oldum Papır... Papır...

Həmişə fikirləşirdim ki, mən Papırın yerinə olsaydım, özümü öldürərdim. Ya da ki, qızı toydan qabaq götürüb qaçardım. Hər halda nəsə bir iş görərdim. Heç vaxt yol verə bilmərəm sevgilimi gözümün qabağında

öldürələr, mən də sadəcə, oturub baxım. Qızı öldürəni öldürərdim heç olmasa. Tək qalıb qüssə yeməkdənsə, ölüb qəhrəman olmaq daha yaxşıdı. Aşiq kimi qəbirdə yatmaq, aciz kimi tövlədə yaşamaqdan daha yaxşıdı. Atamın sözü yadıma düşdü: "Oğlum, bilirsən niyə bir xalq yüz il inqilab edər, amma uğur qazana bilməz? Ona görə ki, onun özünə olan sevgisi Papır sevgisi kimi olar." Papır bədbəxt adam idi. Zəif adam mütəhərrik bir ölüdür. Nəfəs çəkir, yemək yeyir, su içir, hətta sevə də bilər, amma heç vaxt bütöv ola bilmir. Yarımçıq yaşayır və yarımçıq ölür. Papır öləndən bir neçə gün sonra bilmişdilər ölümünü. Meyidi iylənmişdi. Deyilənlərə görə, evindən həmişə it iyi gəlirdi deyə, kimsə öldüyünə şübhələnməmişdi. Kimsəsiz olduğu üçün aparıb çox sakitcəsinə quyladılar. Dəfn mərasimində barmaq sayı qədər də adam olmayıbmış. Bir neçə nəfər Allaha xatir yığışıb pul qoyub, onu yerdən görürmüşdü. Neçə dəfə qəbrinin üstünə getdim, amma nədənsə qəbrini tapa bilmədim. Sonralar həmin yerləri söküb, qəbirləri dağıdıb, yerində un zavodu və çoxlu anbarlar tikmişdilər. Nə Papırdan əsər qalmışdı, nə də o qəbristandan.

Hacı namazdan gəlirdi. Əclafın namazı bir dəqiqə belə gecikməzdi. Cəlladın namaz qılması fahişənin tövbəsinə bənzəyər. Salavat çevirə-çevirə mənə başıyla salam verib otağına keçdi. Arxasınca otağa girib qapını arxamca bağladım. Hacı keçib öz mizinin arxasında otura-otura soruşdu:

– Neyniyə bildiz, Seyid? Nəsə dedizdirə bildiz?

– Yox hələ, Hacı... iki dırnağını öz əllərimlə çəkdim... məndən qabaq da xanım Feyzi işgəncə vermişdi,

amma faydası olmuyub. İnanmıram bu qızdan bir şey qoparda biləк...

Hacı təsbehini əlinə alıb dedi:

– Nəsə dedizdirə bildizsə, heç. Dedizdirə bilməsəz, çox vaxt qoymuyun. Onun hökmü bəllidir!

Etiraz bir ləhn[1] ilə dedim:

– Hacı, bu siyasilərnən adam öldürənlərin heç fərqi yoxdu? Axı, baba, bunlar heç olmasa dərs oxumuş adamlardılar!

Ləhnimdə etirazı hiss elədi.

– Seyid! Bu siyasilər adam öldürənlərdən daha çox qorxuludular. Onlar şəxsə, amma bular dövlətə qarşı çıxırlar. Başa düşürsən?

– Qələt eliyirlər, Hacı. Vallah, bular öz uşaqlarımızdılar.

– Elə öz uşaqlarımızın səsini kəsməsək, özgələr bizi buduyra[2], Seyid!

– Bu inqilab az uşağın səsini kəsmədi, Hacı!

Baxışlarında şübhəni hiss edirdim. Səsini bir az ucaltdı:

– Günah öləndə olar!

İstədim nəsə deyəm ki, Hacı sözümü kəsdi:

– Yaxçı-yaxçı! Bu barədə sonra danışarıq. Get beşinci bölməyə, beş-altı Pejak[3] terrorçusu gətiriblər. Pərvəndələrini oxu, gör nədi!

Məyus olmuşdum. Kürd terrorçularının yolu buraya tez-tez düşürdü. Çoxunun taleyisə məlum idi –

---

[1] ləhn - danışıq tərzi

[2] Buduyra - didib dağıdar

[3] Pejak -PKK-nın İran bölməsi

edam! Ürəyimdə fikirləşdim, kaş Raziyə bilərdi ki, kürdləri də onlar kimi qırırıq. Düşmənin kim olduğunu ideologiyanın forması bəlli edər. Bizim ideologiyamız milliçilik yox, musəlmançılıq və ümmətçilikdi, hansı dildə oxuyub-yazmağımız da bəlliydi. Quran ərəb dilində olduğu üçün ərəb dilini, fars dili ərəb dilinə yaxın olduğu üçün dövlət dili kimi qəbul etməliydik. Ona görə də "milli haqq" və "ana dili" kimi anlamlar bizlərə yad və yasaq idi. Bu nə qədər yalnış olsa da, həqiqət idi.

Şahin arıq və uzun bir oğlan idi. On il eyni sinifdə oxuduq. Uşaqların içində yalançılıqla tanınmışdı. Hər dəfə yalan danışanda onun gözlərində dərin kədər görərdim. Əslində, o kədərdən bilərdim ki, nəyisə yalan danışır. Hündürboy olmağına baxmayaraq, həmişə küçə döyüşlərində kötək yeyərdi və mən gedib onu müdafiə eləyərdim. Futbol oynayanda heç kim onu öz komandasına götürməzdi. Komandalar seçiləndən sonra o, divara söykənmiş vəziyyətdə tək qalardı. Ona yazığım gələrdi.

Atasının apteki var idi. Dəfələrlə onu aldadıb atasının aptekindən özümüzə vitamin həbləri gətizdirmişdik. Şahin onları oğurlauyıb gətirərdi. Gətirməyəndə də əlimizdən qapaz yeyərdi. Cavanlıqda onu qucaqlayıb sataşardıq. O isə özünə çəkilib gizlicə ağlayardı. İndi həmin günləri fikirləşəndə özümdən acığım gəlir. Deyilənə görə, atası İran-İraq müharibəsinin sonuna qədər cəbhədə olmuş və bir neçə yerdən qəlpə yarası almışdı. Yaxşı kişiydi. Həmişə özündə olardı. Azdanışan adam idi. Mənim azdanışan adamlardan xoşum gələrdi. Adamların sirrini öyrənməkdən ləzzət alardım.

Məncə, insanlarda bir çox sirlər var ki, heç onları saxlamağa gərək yoxdu. Yəni, ümumiyyətlə, sirr deyillər. Amma elə sirlər də var ki, açılsa dünya qarışar. Ona görə də açılmaması hamıya sərfəlidir.

Mən onları tanıyandan anası xəstəydi. Bir gün deyirdilər uşaqlığını çıxarıblar, o biri gün deyirdilər əsəbdən dəli olub. Son vaxtlarda da Şahin deyərdi anamın xərçəngi var. Elə bil yazıq arvadın sinə xərçəngi var idi. Neçə il yataqda yatdı. Mən heç o qadını yaxından görməmişdim.

Məktəbdə uşaqlar iki yerə bölünmüşdülər. Bir qrup sayca olduqca çox olan türklər idı. İkinci qrupsa kürdlər idi ki, az olmaqlarına baxmayaraq həmişə bir yerdə olardılar. Onlar bizi hansısa küçədə tək tapıb döyə bilirdilər, amma biz heç vaxt onları tək tuta bilməzdik. Boş vaxtlarımızda bir neçə nəfər bir araya gəlib kürdlər məhəlləsinə döyüşə gedərdik. Hətta qızbazlığa da oraya gedərdik. Axı kürdlərin qadınları bizimkilərə baxanda, açıq-saçıq geyinərdilər. Hər qapının ağzına bir neçə kürd qadını yığışıb söhbətləşəndə bizim üçün əsl əyləncə zamanı gəlirdi. Onların o kirli, kök ayaqları və şirə bağlamış uzun saçları bizim üçün dünyanın ən gözəl şeyləriydi. Şahin heç vaxt bizimlə gəlməzdi. Ona görə də onu – “mamasının gül balası” – deyə dolayardıq. Balıq tutmağa şəhərimizin qırağından axan çaya gedərdik. Saatlarla tilovu suya atıb balıqları gözləyərdik. Hərdən evə 4-5 balıqla gələr, hərdən də sallana-sallana bomboş qayıdardıq.

Bir gün Şahinlə balığa getməyi planlaşdırdıq. Danışdıq ki, səhər-səhər saat 9 da çayın üstündən keçən körpünün başında olaq. Mən düz saat 9 da ordaydım,

amma Şahindən xəbər olmadı. Bir saata yaxın gözlədim onu. Sonunda da – "Yəqin yuxuya qalıb" - deyə fikirləşib, söyə-söyə evə qayıtdım. O gün axşama qədər Şahindən xəbərim olmadı. Yay fəsliydi. Uşaqlarla küçədə axşama kimi top-top oynadım. Axşam atam evə yeni və ağrılı xəbərlə gəldi. Demə, Şahin öz anasını atasının ov tüfəngiylə öldürüb, İraqa tərəf dağlara qaçmışdı. Atası da arvadını dəfn eləyəndən sonra axşama yaxın özünü aptekinin ikinci mərtəbəsində güllələmişdi. Çox sarsıdıcı xəbər idi. Axı Şahin bunu nəyə görə edə bilərdi? O qorxaq uşaq idi. Xəbəri eşidəndə çox ağladım. Sabahısı günü uşaqlarla onların yas mərasiminə getdik. Zülüm-zülüm ağlayırdıq. Heç kim bilmirdi nə olub. Hamı səbəbini bir-birindən soruşurdu. Şahinin atası dayımla dost idi. Səbəbini ona arvadının dəfn mərasimindən sonra özü demişdi: – "1980-ci ildə kürdlər Sulduza basqın eləyəndə, bizim də evimizə soxulmuşdular. Evdə mən, xanımım, atam və anam var idi. Onlar qapını təpiklə qırıb evə qirmişdilər. Təkbaşıma onların qabağında müqavimət göstərsəm də faydası olmadı. Girən kimi üstlərinə cumdum, amma məni vəhşicəsinə döydülər. Atam məni müdafiə etmək istəyəndə onu güllələdilər. Yazıq kişi gözümə baxa-baxa öldü. Anamı tüfəngin qundağıyla elə döymüşdülər ki, yazıq bir ay özünə gələ bilmədi. Mənisə çarpayıya oturdub əl-ayağımı bağladılar. Başa düşdüm ki, xanımıma gözləri düşüb. Onu sürüyə-sürüyə gətirib gözümün qabağında yerə sərdilər. Yazıq hey mənim adımı bağırıb ağlayırdı. Mənimsə – "Bizi buraxın" - deyə yalvarmaqdan başqa əlimdən bir iş gəlmirdi. Yalvarırdım ki, – "Buraxın, sizdə namus yoxdu? Sizdə

qeyrət yoxdu?" O kürdlərin biri mənim qonşum idi. Neçə dəfə arvadıma baxanda görmüşdüm, amma qonşudu deyə, üzünə vurmamışdım. İndisə mənim evimdəydi. Xanımımı gözümün qabağında döyə-döyə soyundurdular. Dörd kişi ona təcavüz etdi. Xanımım haldan getmişdi. Demək olar, onun ölüsünə təcavuz etdilər. Mənimsə artıq nə səsim çıxır, nə ağlım işləyirdı. Onlara yalvarırdım məni öldürsünlər. Deyirdim məni güllələyin. Yaşamaq istəmirdim. Amma onlar nə məni öldürdülər, nə xanımımı. Təcavüz elədikdən sonra, bütün qızılları və dəyərli şeyləri evdən yığıb getdilər. Cismimiz diri qaldı, amma ruhumuz öldü. Mən o hadisədən sonra müharibəyə getdim. Artıq orada qala bilmədim. Müharibədə istədiyim qədər adam öldürdüm ki, bəlkə içimdəki nifrətdən canım qurtara, amma olmadı. Səkkiz il tamam cəbhədən evə gəlmədim. Xanımımı boşamadım. Nə onunla qala bilirdim və nə də onu tək qoya bilirdim. Vaxtilə dəli kimi sevmişdik bir-birimizi... Sevdiyim insana gözümün qabağında təcavüz elədilər... Ölsəydi, bu qədər əzab çəkməzdim! Ondan sonra xanımımı öpəndə belə ürəyimə bir gizilti dolurdu... Ona yad adamların əli dəymişdi. Bilirəm günahı yox idi, amma həqiqət budur ki, sevginin müqəddəsliyi onun yeganəliyindədi. Yeganəliyi pozulmuşsa, o ölər. Ölməsə də, bir ömür sürünər. Məndə də belə oldu. Süründü. Məni də öz arxasınca sürüdü. Müharibədən qayıdandan sonra oğlumu səkkiz yaşında gördüm. Deyirdilər, mən gedəndə, ikiaylıq hamilədi. Yalnız bu uşağın məhəbbəti məni bir az həyata qaytardı. Artıq o hadisənin üstündən neçə illər keçmişdi. Mən və xanımım onu unutmağa çalışırdıq. Sevgi güzgü kimidir, üstünü

toz-torpaq ala bilər, amma siləndən sonra yenə də güzgülüyünə qayıdar. Biz də qayıtmağa çalışırdıq. Dünən gecə xanımım məni öz yanına çağırdı və mənə son sözlərini demək istədiyini bildirdi. Şahin onu öldürməsəydi, elə bir-iki saata özü can verəcəkdi. Gedib xanımımın əlini əlimə aldım və yanında oturdum. Neçə il idi ona xəstə olduğu üçün qulluq edirdim. Dedi ki, məndən çox razıdı. Ağlaya-ağlaya deyirdi... Mən ona dedim ki, o da mənim yerimə olsaydı belə edərdi. Xanımım mənə sön sözünü demək istədi və xahiş elədi səbirli olum. Xahiş elədi onu halal edim. Dedi, Şahin mənim oğlum deyil. Dedi, o dörd kürdün birinin oğludu... Dedi, çox çalışdı uşağı götüzdürsün, amma alınmamışdı. Dedi, məni çox sevir və bu sirri gizlətməkdən başqa çarəsi olmayıb. Halallıq istədi, halal elədim. Bizim bu söhbətlərimizi Şahin eşitmişdi. Qapı arxasından qulaq asırmış. Mən o gecə səhərə kimi həyətdə var-gəl etmişəm. Nə edəcəyimi bilmirdim. Heç vaxt siqaret çəkməyən adam səhərə kimi siqaret çəkdim. Səhər saat beş olardı ki, güllə səsi gəldi. Otağımıza tərəf qaçdım. Güllə xanımımın sinəsindən dəymişdi. Mən otaqda olanda Şahin evdən qaçmışdı. Onun arxasınca qaçdım, amma tapa bilmədim. Təcili yardıma zəng eləsəm də, gec oldu... Dedilər, Şahin İraqa tərəf qaçıb. İki adamımı bir gündə itirdim. Mən kürdlər evimə girən gün bir dəfə ölmüşdüm. Dünən gecə də ikinci dəfə öldüm."

Şahinin atası özünü həmin gün axşam güllələdi. Şahinisə sərhəddən keçəndə sərhədçilər güllələmişdilər.

O tağımda oturmuşdum. Uca səslə "Quran" oxuyurdum. Deyirdim, bəlkə ürəyim rahatlıq tapar. Qəlbimə sonsuz bir kədər çökmüşdü. Uşaqlıqdan bəri Azan və Quranın səsi mənə rahatlıq verərdi. Yadıma gəlir, Sulduzun Sahibəzzəman məscidindən Azan səsi ucalanda, həmişə gedib onun yanındakı səkidə oturub qulaq asardım. Yağ kimi yayılardı ruhuma. Bilmirəm niyə, amma o Azanın səsi məni dəlicəsinə rahatladardı. İndisə çalışırdım az da olsa o rahatlığı tapım. Gözümü yummuşdum və öz aləmimdə razi-niyaz eləyirdim. Allahdan öz günahlarımın bağışlanmasını diləyirdim. Sızıldayırdım. Yalvarırdım.

– Bəsdi... yalvarıram, bəsdi...

Dəhlizdən asta, amma çox ağrılı bir səs gəldi. Əvvəl başa düşmədim, amma təkrar olduqda Raziyənin səsinə bənzətdim. Onu mənim dəhlizimdəki birnəfərlik kameraya salmışdılar. "Quran"ı öpüb, ayağa durub səsə tərəf getdim. Beynim yaman qarışmışdı. Mən Raziyədən qaçıram, onusa gətirib mənim yanıma qoyublar. Düz deyiblər ki, insanın günahı onu ölənə kimi izləyər.

Kölgə kimi arxasınca sürünər. Raziyə mənim uşaqlıq günahım idi. Qapının dəliyindən içəri baxdım. O, otağın küncündə özünə bürünüb oturmuşdu. Dırnağı çəkilən ayaqlarını qandallı əlləriylə sığallayırdı. Çox ağladığından gözləri, demək olar ki, itmişdi.

– Nədi? Nə olub, ay Raziyə xanım?!

– Ağrıyıram... qanaxmam var... mənə dərman lazımdı... bə siz insan deyilsiz?

Feyzi insanların ağrı çəkməyindən ləzzət alırdı. Çox narahat oldum. Hövüşnəylə[1] dedim:

– Yaxçı... yaxçı... narahat olma. İndi gətirərəm... gözdə...

Otağıma tərəf getdim. Mizimin siyirməsində ağrıkəsicim var idi. Götürüb Raziyəyə tərəf qaçdım. Həbi qapının balaca pəncərəsindən içəri tulladım:

– Ala... ala bu həbbi. Ağrını azaldar... axı nə qədər sənə dedim istədiklərimizi elə... görürsən? Nəticəsi budu!

Raziyə həbi götürüb ağzına qoydu. Əlləri titrəyirdi. Suyu yox idi deyə, ağzının olub-qalan suyunu yığıb həbi uddu.

– Qoy gedim su gətirim!

– Yox... yox... lazım deyil...

Ağrıdan gözləri qıpqırmızı qızarmışdı. Heç işgəncə verməsəydik belə, kameranın nəmişliyi çox qısa zamanda onu heydən salardı. Ürəyim acıyırdı halına. Nəsə etməliydim, amma nə?

---

[1] Hövüşnəylə[1] - nigaranlıq

– Sizdən bir xahiş eləyə bilərəm?

– De. De.

– Məni bura gətirəndə hər şeyimi əlimdən aldılar. Hətta barmağımdaki üzüyü də aldılar. O üzük mənə çox dəyərlidi. Olar, onu mənə qaytarasız?

Düz deyir. Dustaqların hər şeyini alırlar. Özlərini asmasınlar deyə, hətta qayışlarını da çıxartdırırlar. Zindandan azad olandasa, özlərinə verirlər. Amma bahalı əşyaların bir çoxunu qaytarmırlar.

– Yaxçı! Baxaram.

Dedim baxaram, amma Hacı bilsəydi ki, məhbusun üzüyünü ona qaytarmışam, işim çox pis olardı.

– Bir dənə də xahişim var!

– Buyur.

– Olar, “Quran”ı yavaş oxuyasız?

– Niyə? “Quran” sənə neynəyib, niyə?

– Özünüzü qoyun mənim yerimə! Siz “Quran” oxumursuz ki, mənə söyürsüz. Səsiniz başıma düşür... ağrıyıram... ata-anamım məndən xəbəri yoxdu... öz dilimdə yazıb-oxumaq istəmişəm, amma zindanda dırnağım çəkilib... üşüyürəm... “Quran”a inanan adam dırnaq çəkməz, sənin oxuduğun “Quran” deyil... yalandı... yalandı...

Raziyə bunları birnəfəsə dedi. Haqlıydı, amma bilmirdi mən kefimdən “Quran” oxumuram. Raziyə boyda günahımı yumaq istəyirəm.

– Lal ol, yaxçı! Hələ bir mənə qadağalar da qoyur. Elə “Quran”ı yalan bilibsən ki, burdasan da. Utanmaz..

İkiüzlülük edirdim. Çarəm yox idi. Kameranın içindən pis bir iy vururdu üzümə. Oranın havası mənə

çox ağır gəlirdi. Havam çatmırdı. Bir an hiss elədim ki, uca bir yerdən yıxılıram. İçimdə diksindim. Pəncərəni bağlayanda Raziyə dedi:

– Qardaş!

– Hə!

Həyəcandan ürəyim partladı.

– Üzüyü mənə gətirərsiz?

Tüpürcəyimi udub xırıldadım:

– Hə... amma bir şərtim var!

– Nə?

– Etiraf elə! Özünü də, məni də qurtar bu əzabdan!

Özünə büründü. Günəş kimi özünə batdı. Dönüb otağıma getdim. Qapını bağlayıb mizimin arxasında oturdum. Qəhər məni boğurdu. Boğazımda sanki qara-yara bitmişdi. Telefonu qaldırıb Feyzinin otağının nömrəsini yığdım.

– Xanım Feyzi! Raziyə Qəhrəmanpurun əşyalarını bura gətirin, zəhmət olmasa.

– Hə ! Nə yaxşı, Seyid? Onları neynirsiz?

– Heç... elə belə baxıram! Bəlkə içindən nəsə bir şey tapdım!

– Mən baxmışam, Seyid. Heç nə yoxdu.

– O heç nəyi mən də görmək istiyirəm, olmaz?

– Olar, niyə olmur. İndi gətirərəm!

Üzümü əllərimin arasına aldım. Bağrım çatlayırdı. Özümü saxlaya bilmədim. Ağladım. Özü də hönkür-hönkür. Elə bilirdim, bir il də ağlasam ürəyim boşalmaz. “Allah-Allah” – deyə, sızıldayırdım. – “Özün bir qapı aç, Allah!”.

– Gəlmək olar!

Feyziydi. Tələsik üzümü silib özümü toparladım.

– Gəlin!

İçəri girib mizimin üstünə bir balaca qutu qoydu.

– Buyur, Seyid! Qəhrəmanpurun şeyləridi. Bir şey olub? Ağlayıbsız elə bil!

– Yox. Sağ olun. Siz gedin. Bir şey lazım olsa, xəbər eləyərəm

– Yaxçı... sağ olun!

Ləhnindən "eşşək özünsən" sözünü başa düşdüm. Artıq mənim də vecimə deyildi. Yorulmuşdum. Ürəyimdə dedim: – "Neynim e! Qoy nə düşünür, düşünsün." – Qutunun ağzını açdım. Balaca pul çantası, bir qızıl qolbaq, bir qələm, bir əl telefonu, bir az xırda pul və bir gümüş üzük. Bahalı üzüyə oxşamırdı. Çox olsa 20-30 min tümənə gedərdı. Ürəyimdə dedim: – "Axı bunun nəyini taxır." – Üzüyü götürüb Raziyəyənin yanına getdim. Dəlikdən baxanda gördüm bir az rahatlaşıb:

– Necəsən? Ağrın kəsib?

– Həyə, bir az yaxçıdı. Sağ olun!

– Bu üzüyün hekayəsi nədi?

– Hekayəsi yoxdu. Sadəcə, mənim üçün dəyərlidi.

– Elə də bahalı üzüyə oxşamır axı!

– Üzüyü mənə bağışlayan adam sizin kimi düşünmürdü...

– Həəə! Gördün? Sevgilin bağışlayıb?

– Yox.

Məlum idi ki, üşüyür. Əslində üşüməsəydi təəccüb edərdim. Kameradasa ədyal yox idi.

– Bəs kim?

– Şəhid üzüyüdü! Uşaqlıqdan saxlamışam. Qonşumuzun oğlu mənə yadigar vermişdi. Onda orta barmağıma taxardım, amma indi çeçələ barmağıma taxıram... Bir an belə özümdən uzaq qoymamışdım!

– Lap yaxşı...

– Gətiribsiz?

– Yox hələ... yəni... hə... amma yox... qalsın sora verərəm...

Ayaqlarım əsdi. Hiss elədim yıxılaram. Bir də üzüyə baxdım...

Üçüncü dayım İran-İraq müharibəsində şəhid olmuşdu. Onun cənazəsini gətirən günü xatırlayıram. Mən uşaq idim. Mamamın atasıgildəydik. Xəbər eləmişdilər ki, cənazəni gətirəcəklər. Ona görə də bütün qohumlar oraya yığışmışdılar. Mən balkondan baxırdım. Tabutu gətirib həyətə qoydular. Anam və xalalarım ağlayıb özlərini tabutun üzərinə atırdılar. Hamı ağlayırdı. Mən tummuşdum[1]. Mamam əl çəkmədi ki, tabutu açın, qardaşımı görüm. Açdılar. Dayımın alnında yara var idi. Sora eşitdim ki, güya güllə arxadan başına dəyib qabaqdan çıxmışdı. Mehriban dayı idi. Həmişə məni aparıb istədiyim şeyləri alardı. Onun o mərdanə və mehriban gülüşləri gözümün qabağındadı. Müharibə baş yeyər. Özü də mərdlərin başını. Müharibə azad insanların başını yeyər. İran-İraq müharibəsi minlərlə azad insanın başını yedi. Həmin o azad insanlar min arzuyla azadlıq üçün inqilab eləmişdilər. Amma imperializmə onların varlığı sərf eləmirdi. Elə

[1] Hövüşnəylə[1] - nigaranlıq

indi də sərf eləmir. Azad insanlar həmişə dolayı yolla imperiyalara qulluq edirlər. Azadlıq yoxdur, azad insan da olmamalıdır. Sülhə müharibəylə çatırsansa, deməli, sən uduzubsan, azad ola bilməzsən. Eyni zamanda sülhə çatmaq üçün də müharibə lazımdı. Güc lazımdı.

Dayımdan mənə iki şey yadıgar qaldı – bir kəhrəba təsbeh, bir də bir gümüş üzük. Təsbehi indi də saxlamışam. Üzüyüsə Raziyəyə bağışlamışdım. Daha doğrusu, uşaq vaxtı onun barmağına taxıb nişanlamışdım.

– Raziyə?

– Hə!

– Gəl aramızda bir peyman bağlayaq!

– Nə?

– Gəl heç vaxt bir-birimizdən ayrılmayaq.

– Yaxçı. Gəl bağlayaq!

– Raziyə!

– Həəə...

– Səni nişanlamaq istiyirəm... mənim nişanlım olursan?!

– Eeeee! Mamam öldürər axıı.

– Qorxma! Barmağını ver mənə...

– Ala! Aaaa, bu, kimindi?

– Sənindi. Mənə söz ver, heç vaxt barmağından çıxartmayacaqsan!

İşvəylə yekə barmağını uzadıb dedi:

– Söz!

O təsbeh və üzüyün üstündə mamamdan çox kötək yemişdim. Təsbehi müvəqqəti olaraq ona qaytarmışdım, amma üzüyün harda olduğunu heç vaxt demədim. Sirr olaraq ürəyimdə saxladım. İndi o üzük əlimdədi. Raziyə onu neçə illərdi ki, saxlayıb. İnanılmazdı. Bu

qız nə qədər vəfalıymış! Bilmirdim güləm, yoxsa ağlayam. İşim bunlardan keçmişdi. Dəli olmağıma az qalırdı. Həyat güzgü kimidir. Hər tərəfə baxırsan özünə rast gəlirsən. Öz əməllərinə rast gəlirsən. Nə qədər qaçmaq istəsən, o qədər dərinlərə batırsan. Mən qaçmaq istəyirdim, amma bilirdim bu qaçış yalnız batmağa doğrudur. Axı mən yuxarı yox, aşağıya gedirdim.

Özümü Tatan kimi hiss eliyirdim. Tatan məhəlləmizin ən sırtıq uşağıydı. Adı Tağıydı, amma anasıgil ona Tatan deyirdilər. Bizdən 4-5 yaş kiçik olardı. Çox qanmaz uşaq idi. Nəsə bir pis iş görəndə yaxşı-yaxşı döyülərdi əlimdə. Döyüləndəsə, – "pox yedim", "qələt elədim" – deyə ağlayardı. Amma bir neçə metr uzaqlaşmamış söyməyə başlayardı. Nənə-bacı söyüşlərini düzərdi ağzının rəfinə. Arxasınca qaçanda yenə – "pox yedim" – deyərdi. Elə əlimdən qurtulub qaçan kimi başlayardı söyməyə. İndi mən özümü lap onun kimi hiss edirəm. Zəif adamın gücü dilində olar. Dilini də, Raziyə demişkən kəssələr...!

İşdə qala bilmirdim. İcazə alıb çıxdım. "Qala başı" təpəsinə tərəfə getdim. Şəhərin ortasında olan təpəyə. Deyilənlərə görə, min illər qabaq türk şahlarının qalaları orda yerləşirmiş. Həmin təpədən çox xatirələrim var idi. Uşaqlığım o təpənin başı və ətrafında keçmişdi. Şəhərin ortasında olan, amma tam qərib və tənha bir yer. Aslan kimi, amma yerə yaxılan bir varlıq. Sakinlər təpənin ətrafından çoxlu qədimi əşyalar tapmışdılar. Dövlət heç vaxt oranı milli bir varlıq kimi qiymətləndirmədi, əksinə həmişə təpənin daha çox viran olunmasına çaılşırdı. Təpənin tam başındaydım. Mülayim bir yel əsirdi. Oradan həm Sültan Yaqub dağı, həm də

Yeddigöz dağı tam aydın görünürdü. Üzümü dağlara tərəf tutaraq gözlərimi yumub, dərindən nəfəs aldım.

Beynim yaman qarışmışdı. Mən bu təpənin üstündən çox müharibələrə şahid olmuşdum. Dağlarda gözümüzün qabağında müharibə gedərdi, tanklar və insanlar bir-birinə girərdilər. Biz də burda oturub bütün bunlara sanki kino kimi baxardıq. Həmişə arzu edərdim mənim də bir tüfəngim olsun. Atama bu arzumu söyləyəndə deyərdi: – "Oğlum, sənin tüfəngin ola bilər, amma onu atmağı da bacarmalısan. Bilməlisən hara və niyə atırsan, yoxsa tüfəng sənin özünü vurar."

Yeddigöz dağı öz əzəmətiylə mənə rahatlıq verirdi. Mən Raziyəni birtəhər qurtarmalıydım.

– Raziyə! Raziyə, ora bax! Görürsən? Tank qülləsidi haa...

– Həəə... görürəm. Gəl gedək evə, nolar! Mən qorxuram...

– Qorxma, Raziyə. Mən burdayam!

Əlindən möhkəm yapışıb sıxardım. Onun yanında özümü kişi kimi hiss edirdim. İndi bilirəm ki, bu özümün yox, Raziyənin mənə verdiyi güc idi. Ömrün boyu çox adamı sevə bilərsən, çox adamla xatirə yaşaya bilərsən, amma sənin ürəyində onlardan yalnız biri dərin iz buraxır. Yalnız bir xatirə var ki, onu xatırlayanda titrəyirsən, dəyişirsən. İstintaqçı olandan bəri yüzlərlə insana köpəyoğlucasına işgəncə vermişdim. Milçək kimi əzirdim insanları. Bir çox qızları sevmişdim. Bir çox qıza sənsiz ölərəm demişdim və onlarla yatmışdım. Hətta kişilərə belə rəhm eləməyib sındırmışdım. Amma yalnız bir nəfər məni bu uzun illərdən sonra titrədə bildi, Raziyə!

Raziyə həmişə məni davakar olduğuma görə danlayardı. Məhəllədə adam qalmamışdı onunla dalaşmayam. Gündə bir yerimi yaralayıb evə gələrdim. Hər gün şalvarımın bir yeri cırılardı. Əslində, günah məndə yox, Sulduzun durumundaydı. Mənim davam, bir növ özümü müdafiəydi. Kimsə özünü müdafiə eləyə bilməsəydi, əziləcəkdi. Müharibədə iki başqa-başqa tərəf iştirak edir. Onların biri almaq, digərisə verməmək üçün döyüşür. Mən verməyənlərin siyahısındaydım.

Uşaqlıq qəhrəmanımsa "eşşək Yadulla" deyilən bir lotuydu. Yadulla, demək olar, şəhərin və hətta ölkənin tanınmış lotusuydu. Zor pulu[1] almaqla həyat keçirirdi. Xiyaban bağlamaq onun ən böyük "igidliyi" sayılırdı. Velosiped sürməsi gülməliydi. Arxadan baxanda yekə arxası balaca bir təpəcik kimi göyə qalxardı. Pedalı basandasa arxası göyə qalxıb gülməli bir mənzərə yaradardı. Bığları düz qulaqlarının yanına kimi gedərdi. Hətta velosiped sürəndə də əlinin biri bığında olardı. Şəhərin əhalisi ondan qorxub hesab aparardı. Bütün gənc lotuların ustadıydı. Kimsə ondan icazəsiz heç küçə bağlaya bilməzdi. Deyirdilər uşaqbaz idi. Elə sonunda da hansısa bir məmurun oğluna təcavüzə görə edam cəzası almışdı. Deyirlər hadisədən sonra oğlan gedib özünü öldürmüşdü, intihardan öncəsə atasına məktub yazıb hər şeyi izah eləmişdi. Amma çoxları qorxularından səslərini də çıxara bilməmişdilər. Eşşək Yadullanı asdılar. Ondan sonra bütün şəhərin lotuları özlərini yığışdırdılar. Şəhər hardasa sakitləşmişdi.

---

[1] Zor pulu - güc tətbiq eləməklə pul almaq

Ən gülməlisi bu idi ki, onun oğlunu da pozmuşdular. Oğurluq üstündə zindana düşən o "qəhrəman balası"ndan məhbuslar pozğun kimi istifadə edirdilər. Deyirlər zindandan çıxan gün gəlib hamının qabağında donbalıb bağırmışdı ki: – "Gedirəm haaaa. Day belə şey əlinizə çatmayacaq. Gəlin, hərrac eləmişəm...!"

Yazıq oğlan narkoman olmuşdu. Bir neçə il sonra şəhərin "Pasaj" deyilən yerində özünü asmışdı. O günü xatırlayıram. Yazığı yerdən götürüb aparıb quylayan tapılmırdı. Fikirləşirdim ki, axı bu təsbeh fırladanlar hardadılar? Axı dini baxımdan ölünün yerdə qalması günahdı. Dünyanı dəyişmək istəyirsən, amma öz uşağına tərbiyə verə bilmirsən. Uşaqların qənimi və qəhrəmanına çevrilirsən, amma öz uşağının şəxsiyyətini hərraca qoyurlar. Döyüşürsən, amma nə qədər haqqın var, yaxud haqqın varmı, yoxsa – "yox" – sualı cavabsız qalır. Ümumiyyətlə, anamın atası demişkən: "Bu haqqı kim bölüb, bu yolları kim bölüb axı?" Anamın atasının adı Məhəmməd idi. Deyirlər bir gün o, bir yolda velosipedlə əks tərəflə gəlirmiş. Kimsə maşınla həmin yolla gedirmiş. Yolun harasındasa bir-birinə çatıblar və maşının sürücüsü babama deyib:

– Ay kişi! Öz yolunnan get dəəə. Bura mənim yolumdu axı!

Bu qanunlardan xəbəri olmayan yazıq kişi cavab verib:

– Ədə, bu yolları kim bölüb, hə? Mənim xoşum gəlir burdan gedəm, sənə nəəəə? Get yolu bölənə denən, Məmməd dedi – "Atova lənət, yolu bölən!"

Atasına lənət bölənin. Nəsə bir şeyi böləndə gərək qara kütlənin istəyi və səviyyəsini nəzərə alasan. Mənə

həmişə sual idi ki, bütün dünyada maşınların sükanı sol tərəfdədi, bəs İngiltərədə niyə belə deyil? Deməli, heç nə mütləq deyil və hansısa boşluğu var. Aşıq dayım demişkən, – "Qanunu imkanlılar imkansızları idarə etmək üçün yazıblar, kütləni rahatlatmaq üçün yox!"

İnqilabın tarıxındə "həbse kişmişi" deyilən bir hadisə yadda qalan olmuşdu. Xəlxali adında bir cinayətkar molla represiya dövründə məhkəmədə hakim imiş. Onun özünəməxsus hakimliyi və hökm vermək metodu olub. O dövrün "inqilaba zidd" olanlarını Xalxalinin yanına aparardılar ki, guya adil bir məhkəmədə onları cəzalandırsın. Görənlər deyirlər ki, Xəlxalinin mizinin üstündə bir kasa kişmiş olurmuş. Hər bir məhkum otağa girib onun qabağında oturanda, Xəlxali deyirmiş: – "Kişmiş götür!" – Dünyadan xəbərsiz cavansa kişmişi götürəndə Xəlxali deyirmiş: – "Tök mizin üstünə, görüm neçəsin götürübsən!" – Yazıq cavan təəccüblə kişmişləri mizin üstünə töküb sayarmış. Neçə dənə kişmiş götürmüş olsaydı, o qədər il də cəza çəkməli olurdu. Utanıb götürməyənlərisə birbaşa edama göndərirdi. Deyirmiş: – "Bunlar pak cavanlardılar, qalıb bu dünyada günaha batınca, qoy getsinlər cənnətə".

Bu, Xəlxalinin qanunuydu. Əslində, hakimiyyətlər həmişə satılmış olurlar. İnqilablar nə qədər təmiz ürək və təmiz ideyayla başlasalar da, yarıyolda hakimiyyətçiliyə satılırlar. Xəlxali inqilab eləyən gəncləri cənnətə göndərirdi. Mən bütün şərəfsizliyimlə and içərəm ki, Xəlxalinin o gənclərin hətta miliyonda biri qədər də inqilabın qələbə çalmasında rolu olmayıb. Bunu özümdən də görə bilirəm! Mən inqilab olanda uşaq

idim. Amma indi böyüyüb həmin inqilabın istintaqçısı olmuşam. Mən özüm bilirdim ki, hətta ora gələn cinayətkarın da bu ölkədə məndən çox payı var. Ən azı, onlar mənim kimi kütləvi şəkildə insanları həm mənəvi, həm də fiziki baxımdan təhqir etməyiblər. Ən azı, onlar öz elədiyi günahlarının cəzasını alırlar, amma mənim kimilər heç vaxt cəzalanmırlar. Hətta hakimiyyət dəyişsə belə, kimsə bizi tanımayacaq!

1978-ci ildə bir çox məmurlar və polislər qaçdılar. Bir çoxusa qaça bilməyib millətin əlinə düşdü. Millət onların birinə belə rəhm eləmədi. Hamısı güllələndi. Hansısa polis küçədə millətin əlinə düşürdüsə, deməli, onu çox pis anlar gözləyirdi. Deyilənlərə görə, ağacdan asaraq, cinsi orqanlarini kəsib, ağızlarına soxurdular. Günlərlə cəsədi ağaclardan sallaq qalırdı. Bizim kimilər də onları bilirdilər. Ona görə də gizli məmur olduğum üçün ürəyimdə sevinirdim. Ölməkdən qorxmuram, ən qorxduğum şey özümü onlardan ayırdığım xalqımın üzünə baxmaq idi. Necə üzlərinə baxa bilərdim? Hamısı qohum-qonşular idi. Tanıdığım şəhərdaşlarım idi. Səhər burda oğluna işgəncə verib, axşam atasının mağazasında oğlundan danışıb çay içdiyim insanlar! Qızına burda təcavüz edib, atasıyla birlikdə onu axtardığım insanlar!

Raziyə dizlərini qucaqlayıb divara söykənmişdi. O pəncərəsiz və nəmişli zindanda inqilabçı qalmaq və azadlıq haqqında düşünməyin özü qəhrəmanlıq idi. Raziyə qəhrəman idi, amma əmin idim ki, xalqın ondan heç xəbəri yoxdu. Hətta Raziyə küçəyə çıxıb millətdən

yardım istəsəydi, desəydi ki, – ay millət, mən sizə görə zindandayam – millət ona gülüb dəli kimi baxacaydı. Mən millətin psixoloqiyasına bələdəm. Onun kimi insanlar tək- tük tapılardı. Raziyə tək idi. Qərib idi. Heç vaxt tanınmayan və sirri açılmayan bir qəhrəman. Bədəninin titrəməsini aydın görmək olurdu. Sayıqlayırdı. Başı açıq idi deyə, saçları pərişan şəkildə üzünə töküllmüşdü. Qara və uzun saçlar. Uşaqlıqda arzuladığım saçlar. Qorxub, utanmasaydım içəri girib, qucaqlayıb saçlarında boğulardım. Ölənə kimi iyləyərdim saçlarını. Üzüyü barmağına taxıb yenidən nişanlayardım. – "Bağışla" – deyərdim. O da bağışlayardı. Buna əminəm.

Hiss elədi kimsə ona baxır. Tez qapının bacasını bağladım və otağıma gəldim. Həmişə içində gizləndiyim otaq artıq məni gizlədə bilmirdi. Nə dərimə sığırdım, nə otağıma. Lənət olsun bu həyata, bu bəxtə. Lənət olsun bu alın yazısına. Bir ömür kitab sat, kitab oxu, sonundasa istintaqçı ol və sevdiyinə işgəncə ver.

– Alo...

– Seyid, gəlmisən?

– Bəli, Hacı. Bir az olar gəlmişəm.

– Seyid, demə bilmirəm haa. Nəsə olub sənə. Gec gəlib tez gedirsən. Işinə can yandırmırsan. Belə olmaz haa. Bax, sənə dedim.

– Yox, Hacı. Bir az evdə müşkülüm var. Sulduzda uzun illər olmadığımdan, bəzi müşküllərimı yerbəyer eləmək vaxtımı alır. Həll olar, inşallah.

– İnşallah. Kor Allahdan nə istər? Dur get istintaq otağına. Dunən gətirdiyimiz pejakçıların yanına. Mirmehdi ordadı.

– Yaxcı, Hacı. İndi gedərəm.

Kürd terrorçularının hökmü bəlliydi. Asılacaqdılar. Silaha əl atan hər bir terrorçunun hökmü edam idi. Sadəcə, dostlarının yerini və buna oxşar informasiyalar almalıydıq. Onlar bəlkə də mənim gördüyüm yüzüncü edamlılar idilər.

Mirmehdi ordaydı. Əlində qanlı şallaqla dustaqların başında dayanmışdı. Terrorçuların iki əlini bağlayıb göydən asmışdılar. Bədənlərində şallaq və söndürülmüş sigaret izləri gözə dəyirdi. Köynəklərini çıxartmışdılar, amma o gen kürdü şalvarları əyinlərindəydi. Yaxına gedib birinin çənəsini göyə qaldırıb kürdcə dedim:

– Kəkə, çoni?[1]

Gözlərini bir balaca açıb, soyuq baxışlarıyla mənə dedi:

– Çak niyəm![2]

– Kəkə, niyə silah götürüb düşübsüz bu dağların üstünə? Nə istiyirsiz bu dağlardan?

Hulqumunun tərpəşməsindən bəlliydi ki, tüpürcəyini udur.

– Azadlıq!

– Özgənin torpağında özünüzə azadlıq axtarırsız? Hə, kəkə?

– Bırar![3] Bura bizim torpağımızdı...

Kurdistann...

– Kim dedi, sizindi? Bura İrandı. Bu torpaqlar da Azərbaycanındı. Kürdlərin özlərinin az torpağı yoxdu

---

[1] Qardaş necəsən?
[2] Yaxşı deyiləm.
[3] Qardaş

ki. Gedin yaşıyın da. Gəlib milləti niyə qırırsız? Silahı kimdən alırsız?

Çənəsini buraxıb arxasına keçdim.

– Silahı hər yerdən aliriq, bırar. Türkiyədən... İraqdan... İsrayildən... sizdən!

– Bizdən? Gözümüzün qabağında özümüzə şər atırsan? Bu qədər işgəncəyə məruz qalıbsan, amma ağlın başına gəlməyib, hə?

– Vallahi... sizdən də aliriq. Silah olsun, birar... Kim satsa aliriq.

Gücü yox idi mənimlə mübahisə eləməyə. Məncə, heç onların özləri də bilmirlər niyə döyüşürlər. Onların təbiəti beləydi. Dağda-daşda böyüyüblər və döyüş onların qanlarındadı. Kimsə də tapılıb deyəndə ki, türklər sizin düşməninizdi, silah əllərinə alıb fikirləşmədən döyüşə gəlirlər. Tüfəng qadın kimi bir şeydi. Əlinə alıb oynaşırsan, amma nə qədər təhlükəli olduğunu bilə bilmirsən. Bu terrorçular da döyüş üçün döyüşürdülər. Böyük Kürdüstan deyilən şeydən başları çıxmırdı. Kimsə bu məntəqəni gərgin saxlamaqdan ötrü bu oyunu ortaya atmışdı. Milli qarşıdurmalar həm hakimiyyətə, həm də xarici quvvələrə sərf eləyirdi. Kürd və Kürdüstan vasitəsilə xarici quvvələr həm İran və Türkiyəyə təzyiq göstərirdilər, həm də Azərbaycanı təzyiq altında saxlıyırdılar. İran hakimiyyəti isə həm kürdləri asırdı, həm də yeri gələndə, onlardan Azərbaycan və Türkiyənin əleyhinə istifadə eləyirdi. Əslində, kürd hamının əlində bir oyuncağa çevrilib. Böyük Kürdüstan ancaq bir xülyaydı. Həqiqətsə başqa şey idi. Böyük vətən anlamı millətlərin narkotikidir. Millətin böyüklüyü yalnız torpağın böyüklüyüylə yox, həm də mədəniyyətin

böyüklüyüylə ölçülər. Millətin böyüklüyü həmin millətin həqiqəti qədərdir. Yəni nə qədər həqiqətin böyükdürsə, o qədər də böyük millətsən. Böyümək üçün böyük həqiqətlərə tapınmalısan.

– Mirmehdi!

– Bəli, Seyid.

– Aç bu yazıqları. Onsuz da ölüdülər. Apar kameralarına. Pərvəndələrini göndərərsən otağıma.

Hacı məni bunları döyməyə göndərmişdi. İşgəncə verməyə. Amma artıq əlim döyməyə gəlmirdi. Raziyə məndə çox şeyləri dəyişirdi. Hərdən unudulmuş sevginin közü yaşadığın sevgilərin alovundan daha betər olur. Qəfildən hansısa bir yel, hansısa bir külək əsir və sən odlanırsan. Bütün vücudunla yanmağa başlayırsan. Bilmədiklərini bilməyə başlayırsan. Unutduqların da birbəbir yadına düşür...

Yuxudan zəhər kimi oyanmışdım. İşə getmək istəmirdim. Ağzım zifir[1] dadı verirdi. Dünən heç olmasa iki qutu siqaret çəkmişdim. Hərdən elə olur ki, hansısa bir acını unutmaq üçün başqa bir acıya ehtiyacın olur. Təzə yaralar köhnə yaraları unutdurur. Tam silə bilməsə də, üstünə nazik bir xatirə tozu səpir. Təzə yaralar köhnə yaraları xatirəyə çevirir.

Səhər yeməyi yemədən yola düşdüm. Yoldaşım və uşaqlarımla sağollaşmamış evdən çıxdım. Nədənsə, o gün bütün küçələrə, adamlara, divarlara, quşlara və nə bilim hər şeyə diqqət edirdim. Sanki bir daha oralardan keçməyəcəm. Sanki bir daha onları görməyəcəm. Sallana-sallana sürüşürdüm şəhərin əlindən. Nə edəcəyimi bilmirdim. Çox vaxtlar insanın yaşadıqları onun istədikləriylə üst-üstə düşmür. Insanın üzündəki özü onun daxilindəki özü ilə razilaşmır. Məncə, insanların çoxu belədi. Mən də eləydim. Mən daxilən pis adam

[1] zifir - siqaretin bədənə hopmuş iyinə deyirlər

deyildim. Siyasət elə şeydir ki, istənilən insanı dəyişə və istədiyi kimi formalaşdıra bilər. Mən formalaşmışdım. Özüm deyildim, məndən düzəldilmiş bir formaydım. Özüm olmaq üçün bu formanı soyunmalıydım!

Ölüm dəhlizinə çatanda əcəl təri oturdu alnıma. Fikirləşdim indi Raziyə büzüşüb və dırnaqlarının ağrısından sızıldayır. Hətta onun zindanının qabağından keçməyə də üzüm yox idi. Pişik kimi asta-asta yeriməyə başladım. Çalışırdım səsim çıxmasın. Dəhliz çox soyuq və qaranlıq idi. Raziyənin kamerasının qabağına çatanda dayandım. Yavaşca qapıdakı pəncərəni açdım. İçəri baxanda çox təəccübləndim. Raziyə yox idi. Ürəyimə acı bir həyəcan doldu. – "Yəni hardadır?"

– Alo! Salam, Hacı!

– Bəh-bəəəhh, Seyid? Xoş gəlmisən!

– Hacı, bağışla, bir az bədənim ağrıyırdı. Elə bil soyuqlamışam.

– Seyid, bu günlər özünü qorumursan haaa. Özünü qoru, qardaş!

– Baş üstə, Hacı. Siz nigaran olmayın. Yaxçılaşaram. Hacı, hələ bilmirsiz Raziyə Qəhrəmanpur hardadı? Kamerasında yoxdu.

– Hə... onu aparıblar əkinçiliyə! Yerin bilirsən da hardadı. Istəyirsən sən də dur get ora, baş vur gör nə xəbər var?

Ürəyim ağzımdan çıxırdı, əsə-əsə dedim:

– Ora... ora niyə? Yaxcı... yaxcı... indi gedim!

"Əkinçilik" bizim dilimizdə məhbusun özü öz qəbrini qazmağına deyirdilər. Edama məhkum olan və ya dövlətə qarşı çıxan məhkumlara öz qəbirlərini qazdırar-

dılar. Beləliklə, onu ölmədən öncə ruhi baxımından öldürərdilər.

“Əkinçilik” sahəsi hardasa bir hektara yaxın olardı. Bizim iş yerimizdən oraya iyirmi dəqiqəlik yol var idi. Adi insanların qəbirlərinə qarışmasınlar deyə, o sahəni bir az aralıda götürmüşdülər. Edam olanları orada naməlum şəkildə basdırardılar. Cənazəsini ailəsinə təhvil vermək istəsəydilər, cəsədin müqabilində muştuluq tələb edərdilər. Yəni edam olunanın ailəsi gərək övladının olməsinə görə sevinib, dövlətə təşəkkür də eləyəydi! Gülləylə edam olunanların ailəsindən güllələrin pulunu da tələb eləyərdilər. Hayıfları gəlirdi guya güllələrinə. Şərqin durumu budur. Hakimiyyətlərin gözündə insanların canı güllələrin qiymətindən daha dəyərsizdir.

Havada qara buludlar hökm sürürdü. Sırtıq bir yel əsirdi. Yaxına getməyə cəsarətim çatmadı. Tanınmaqdan it kimi qorxurdum. Raziyəyə ağ paltar geyindirmişdilər. Uzaqdan görürdüm. Feyzi oturub ona baxırdı. Bir az uzaqdasa üç əsgər keşik çəkirdi. Raziyə çox çətinliklə külüngü qaldırıb yerə çırpırdı. Hardasa, yarım metr qazmışdı. Görünür, səhər azanından bəri başlayıbmış. Bir siqaret yandırıb dərindən içimə çəkdim. Yazıq Raziyə! Günahı nədi axı? Əhh... Ürəyimdən keçdi ki, gedəm əsgərlərin əlindən silahı alaraq hamısını öldürüb Raziyəylə birlikdə qaçıb gedəm. Amma hara qaça bilərdim. Çox bədbəxt millətik. Solumuz İraq idi, sağımız Türkiyə kürdləri. Heç yerə qaça bilməzdik. Gec-tez tapıb öldürərdilər bizi. Kimdən-kimə və har-

dan-hara qaçmaq çox önəmliydi. Mən özümdən qaçırdım, Raziyəni bilmirəm!

İkinci siqareti yandırdım. Raziyə hələ qazırdı. Yorulub dayanmaq istəyəndə Feyzi bir daş götürüb ona tərəf atıb bağırırdı :

– İşlə, qəhbə! Dayanma baaa. Burda yatacaqsan sabahdan... dərin qaz, dərin qaz görüm!

Raziyəsə yenidən o ağır külüngü götürüb axsıya-axsıya, yorğuncasına yerə çırpırdı. Anam həmişə mənimçün dua eləyəndə deyərdi: "Allah səni neyləyim, necə eləyimə salmasın, bala." Mən indi bu duanın yerini və qədrini bilirəm. Tam çarəsiz idim. Quşların səsi əsəbiləşdirirdi məni. Görəsən, onların da vətəni var? Görəsən, onlar da öz milli haqları uğrunda döyüşüb edam və işgəncəyə məhkum olurlar? Vətən qaranquşlarındı, yoxsa sərçələrin? Kaş qaranquş doğulaydı adamlar – vətənsiz, dinsiz və azad!

Sulduzda Eynulla Qırxkot adında dəli yaşayırdı. Eynulla harda bir cırıx kot[1] tapsaydı, əyninə geyinərdi. Ona görə də ona Eynulla Qırxkot deyirdilər. Eynulla nə qədər də soyunsaydı, yenə də təmizə çıxmazdı. Lay-lay çırkaba bulaşmış paltarları geyinmək çox qorxuludu. Bəzən başına gələn hadisələr və elədiklərin bu paltarlar kimi səni geyinir. Yəni sən paltarı yox, paltar səni geyinir. İnsan istəsə belə özünə çata bilmir. Eynulla Qırxkot olmaq çox qorxuludu. Mən qorxurdum.

Üçüncü siqareti yandırdım. Raziyə qazırdı. Bilirdim ki, bu gecə onu özü qazdığı qəbirdə yatırdacaqlar.

---

[1] kot - qurtka

Belə şeylərdən çox görmüşdüm. Qəbri qazdırıb, sonra bir gecə məhkumu onun içində yatırdırdılar. Yazıq məhkum artıq ölü kimi bir şey olurdu. İnsanı diri vaxtı qəbirdə, özü də gecə çağında yatırtmaq dünyanın ən dəhşətli işgəncəsidi. Dağın üstündən çobanlarla birlikdə bir sürü qoyun keçirdi. İtlərin səsi başıma düşürdü. Ürəyimdə dedim: "Kaş o çobanın yerinə və ya heç olmasa, o qoyunların birinin yerinə mən olardım." Başım ağrıyırdı. Uşaqlıq sevgilimin işgəncəsinə şahid olurdum. Ancaq bu işgəncə ikitərəfliydi. Raziyə əzab çəkdikcə, mən də ondan betər əzilirdim. O ağlayırdısa, mən batırdım. O ölürdüsə, mən məhv olurdum, yox olurdum.

Dördüncü siqareti yandırmadım. Qayıtdım otağıma. Bu rəzalətə dözə bilmirdim. Üsyan eləmək istəyirdim. Nəyisə dəyişmək, nəyisə sındırmaq, nəyisə yaratmaq istəyirdim. İmamın başımın üstündəki şəklini götürüb arxası üstə mizin üstünə atdım. İçimdə qəzəb və məhəbbəti birlikdə yaşadırdım. Hər şeyə nifrət edirdim. Raziyənisə sevirdim.

Xomeyni guya xalqa xidmət eləmək üçün gəlmişdi, ancaq həmin xalqı asıb-kəsdi, öldürdü. Çünki onun beynindəki xalqın bizim millətimizə heç bir aidiyyatı yox idi. Ona xəstə və bəndə bir ümmət lazim idi. Lap mənim kimi. Ona Eynulla Qırxkotlar lazım idi. Hərdən "xalqa" görə xalqı qurbana çevirirsən. Hərdənsə bir sözlə, bir balaca işinlə bir xalqı yaşada bilirsən. Xalqın ürəyində yaşamaq asandı, amma onları daşımaq olduqca çətin və məsuliyyətli bir işdi. Mən kütlənin inqilabına inanmıram. Kütlə ehtiyaclarını ödəyə bilməyən

zaman etiraz eləməyə başlayır, amma nəyisə dəyişə bilmir. İnqilabın bətnində dəyişmək yoxdur, qırmaq, qırılmaq və dağıtmaq var. Öldürmək və itirmək var. Zindan və edam var. Dəyişmək üçün islahat aparmaq lazımdı. Onu da özündən başlamalısan. İslahat gec nəticə verib və ya heç nəticə verməyə də bilər. Yalnız o zaman ayağa qalxıb silah ələ almaq olar. Silahli mübarizə və inqilab mədəni islahatın nəticə vermədiyi yerdə son və tək çarədir.

– Alo!
– Bəli, Hacı!
– Qayıdıbsan elə bil, Seyid!
– Bəli, Hacı. Başım yaman ağrıyırdı. Qala bilmədim. Xanım Feyzi ordaydı, nigaran olmayın.
– Mən səndən nigaranam, Seyid!

Hacının sözündə kinayə qaynayırdı. Səsi müstəntiq səsi kimi itiydi. Lap adamın içini doğrayırdı. Hacını gözəl tanıyırdım. İndi ürəyində məni söyürdü. – “Artıq vecimə də deyil, qoy nə qələt eliyəcək, eləsin.”

Hacı davam elədi:
– Seyid, gəl otağıma, danışmalıyıq.
– Baş üstə, Hacı. İndi gələrəm.

Hacının sifətini görməyə heç halım yox idi. Bilirdim, gedəcəm başlayacaq məni danlamağa. Ancaq getməkdən başqa çarəm də yox idi. Dəhşətli fikirlər gəlirdi beynimə. Lap sümüyümə dirənmişdi bu bıçaq. Raziyənin ətin yesəydim də, sümüyünü atmamalıydım. “Bıçaq öz dəstəsini kəsməz” – deyərlər, amma mənimlə Raziyə arasında bu belə deyildi və bıçaq öz dəstəsini kəsirdi. Bir millətdən olan iki vətəndaş ola-ola düşmən idik. Ancaq bu belə olmamalıydı. Hardasa oxumuşdum ki, eyni dildə danışan iki adam fərqli ideologiyalara qulluq edə bilməzlər. Dil birliyi onlara bu icazəni verməz. Bəs necə olub ki, mənim kimilər və Raziyə kimilər yaranıb?

– Bəli!?

– Mənəm, Hacı!

– Gəl… gəl içəriyə.

Hacı boğaza qədər sinmişdi mizinin arxasına. İlk dəfəydi məni görüb heç yerindən belə tərpənmədi. Ürəyim dəlicəsinə çırpınırdı. Həyəcandan Hacı deməmiş, keçib oturdum onun qarşısındakı oturacaqda.

Nəfəsimi min müsibətlə udub sızıldadım:

– Sözünüz var idi, Hacı?

Həyəcanımı hiss elədi, amma üzümə vurmadı.

– Nə var, Seyid, bu qızın məsələsi nə yerdə qaldı? Bir iş görə bilmədiz, hə?

– Yox, vallah, Hacı. Əlimizdən gələni elədik. Mən özüm dırnaqlarını çəkdim, amma faydası olmadı…

– Bəs indi mən yuxarıya nə deyim? Deyim bu qədər təcrübəynən bir qıznan bacarammadıq.

Sözüm yox idi. Nə cavab verəcəkdim ki?

– Bilmirəm, vallah, Hacı. Siz necə məsləhət bilsəz!

– Məsləhəti bildim da, nə faydası oldu. Bir qızı danışdıra bilmədin!

Hacı yaman əsəbiləşmişdi. Hirsi bağırsaqlarını kəsirdi. O pinti sifəti çuğundur kimi qızarmışdı. Təsbehini əlində oynada-oynada pəncərənin qırağına tərəf getdi. Mən də oturacaqdan durub arxasında dayandım.

Hacı bir az fikirləşib davam elədi:

– Yaxçı… onda məcburuq qızı “hicləyə” yollayaq!
– Nə.. nə, Hacı? Hiclə?

Ayaq üstə dura bilmirdim. Ayaqlarım titrəyirdi. Aşkara titrəyirdim. Bakirə qızları edamdan qabaq hicləyə göndərərdilər. Bakirə dünyadan gedib cənnətə düşməsinlər deyə, kimsəylə bir gecəlik siğə eləyir, sabahısı günüsə edam edirdilər. Raziyəm, mənim Raziyəm! Onun bu günlərə düşəcəyini ağlıma belə gətirə bilməzdim. Yazıq bir ömür şərəflə, mübarizəylə yaşamışdı, amma indi gərək burada, bu mürdarxanada bakirəliyi kimsəyə hədiyyə olunaydı. Bu, dəhşət idi. Buna imkan verə bilməzdim.

– Hacı, hardan bilirsiz bakirədi? Bu yaşda da qız olar?

– Qızdı, Seyid, qızdı. Dünən gecə doktor baxıb!

Deməli, dünən gecə məndən xəbərsiz onu edama hazırlayıblar. Dünya başıma fırlanırdı. Bu dünya həqiqətən də ədalətsizliyin məkanıdı. Ədalət ölənlərin xülyasıdır. Məncə, ədalətdən gülməli bir şey yoxdu. Mən bu zibillikdə ədalətin uğrunda döyüşənləri də, ədalətə tüpürənləri də yaxından gördüm. Məncə, ədalət yoxdur. Bu dünyada yeganə həqiqət – Müharibədir!

– Sabah bir qutu şirni və bir dəstə gül alıb yollayarsan qızgılə. Qoy ailəsi kürəkənlərini tanısınlar!

– Mən… mən, Hacı?

– Hə, sən! Nə oldu? İstəmirsənsə, verim Kak Murada!

Kak Murad da mənim kimi müstəntiq idi. Kürd olduğu üçün onu çox üzə çıxartmırdılar, amma belənçik işlərdə ilk namizəd olardı. Onun kürd olduğunu kimsə-

yə bildirmirdilər. Murad həqiqətən bir cəllad idi. Qərara gəlməliydim, ya Raziyənin Kak Muradın siğəsi olmasına razılaşmalıydım, ya da özüm bakirəliyini pozmalıydım. Çıxılmaz bir durumdaydım.

– Yox… yox, Hacı. Kak Murad niyə? Özüm eliyərəm…

Bu cümləni deyib bitirənə qədər min dəfə ölüb dirildim. Özümü güclə saxlamışdım.

– Yaxcı, onda sabah gecə toyumuz var, get özünü hazırla.

Bütün varlığını uduzanlar kimi, əli-qolu sallaq yola düşdüm.

– Seyid?

– Bəli, Hacı?

– Şirniyat və gül yaddan çıxmasın!

Hacı bu sözü tam bir köpəyoğlu kimi dedi. Acı və istehzalı gülüşlə "toy" kəlməsini ağzına gətirdi. Raziyəylə evlənmək uşaqlıq arzum idi. O zamanlar hətta Raziyənin küləyi mənə dəyəndə çox sevinərdim. Min fırıldaq edərdim ki, ona toxunam. Dəfələrlə onu qucaqlamağa çalışmışdım. Raziyə həmişə əlimin üstündən acılıqla vurub özündən uzaqlaşdırardı. Özü kimi tərbiyəli qız görməmişdim. Uşaqlıq arzumun bu şəkildə gerçəkləşməsi bir faciəydi. Onu gəlinlik paltarında yox, zindan paltarında, evimə yox, zindanın yatağına aparmalıydım! Vətən haradır? Biz kimik? Nələr olur bizlərə?

Bu işi görməyə məcbur idim. Heç bir çıxış yolu ağlıma gəlmirdi. Birinci fikirləşdim özümü öldürüm, amma faydasız görünürdü. Raziyəni bu durumda tək

qoya bilməzdim. Etiraf eləmək qərarına gəldim. Gedib Raziyəyə hər şeyi etiraf eləyəcəm. Kim olduğumu ona deyəcəm, məcbur olduğumu deyəcəm. Yəqin məni başa düşər, yəqin məni bağşılayar. Onun kimi insanların ürəyi böyük olar, keçər mənim günahımdan. Günahı etiraf eləmək, günahdan pak olmaq deməkdi. Etiraf eləyəndən sonra rahatlaşırsan, dərindən nəfəs ala bilirsən. Mən də etiraf eləyəcəm. Gülməliydi, sonunda etiraf eləyən Raziyə yox, mən olacaqdı.

Hardasa səkkizinci sinifdə oxuyurdum. Xəbər verdilər ki, orta məktbə qızlarını daşıyan avtobusu və onun içində olan qızları qaçırıblar. Bu biabırçılıq çox tez bir şəkildə bütün şəhərə yayılmışdı. Avtobusu kürd mücahidləri qaçırmışdılar. Bizim şəhərin coğrafi mövqeyi terrorçu quruplara çox asanlıqla bu cür faciələr törətməyə imkan verirdi. Bir neçə kilometr o tərəf İraq sərhəddiydi və qaçaqçılar yalnız bir neçə dəqiqəyə özlərini İraqa çatdırırdılar. Həmin avtobusu da oraya qaçırtmışdılar. Bütün küçələr, bütün kafelər bu hadisədən danışırdı. Hamı biri-birindən utanırdı. Sanki millətin hamısına təcavüz etmişdilər. Sanki şəhərimizin namusuna təcavüz etmişdilər. Ailələr artıq qız uşaqlarını məktəbə göndərmirdilər, analar qara bağlayırdılar. Sükut şəhərdə ən çox eşidilən səsiydi. Faciə toz kimi oturmuşdu Sulduzun üzünə. Sulduz böyük bir sınaqla üz-üzə qalmışdı. Qızların ailələri polis idarəsinin qabağından çəkilmirdilər. Gözlərində yalvarışla nifrətin birləşməsi dalğalanırdı. "Bizim namusumuzu qaytarın" – deyə yalvarırdılar. Sulduz polisinin əlindən heç bir iş

gəlmirdi. İran və İraq müharibə şəraitindəydi. Qızları qaytarmaq üçün gərək İraq topraqlarına girəydilər, bu isə mümkünsüz idi. Yalnız bir yol var idi: oturub dua edib, gözləmək!

Şəhərin bir dəstə gənci bir araya gəlib İraqda terrorçuların yerləşdiyi məntəqəyə hücum eləmək niyyətindəydi. Bu dəstədə qaçırılan qızların qardaşları və ataları da variydı. Onların sayı otuzdan çox olmazdı. Ən gənclərisə bizim məhəlləmizdə yaşayan onaltı yaşlı Rza idi. Rza heç vaxt bizlərə qarşımazdı. Özünün başqa bir dünyası var idi. Anası rəhmətə getmişdi və atası başqa bir qadınla evlənmişdi. Ona görə də evlərini sevmirdi. Atasını sevmirdi. Demək olar ki, Rza heç kimi sevmirdi. Rzanı o qrupun içində görəndə çox təəccübləndik. Məhəllə uşaqları deyirdilər: ”Qeyrət, namus məsələsi bu şeylərə baxmaz.” Gənclərin bu işi bizim kimi uşaqları da qeyrətə gətirmişdi.

– Mama… nolar, qoy mən də gedim da bu uşaqlarnan, nə olar!?

– Yox, oğlum, sən çox uşaqsan. Qeyrət çəkməyə vaxtın çatmayıb hələ, bir az böyü, sora!

– Axı Rza gedir!

– Rza səndən iki yaş böyükdü, oğlum. O, yekə oğlandı!

Anam qoymadı mən də onlarla gedim. Deməli, mənim qeyrət çəkməyə hələ iki yaşım qalırdı! Mən özümü uşaq saymırdım, amma bəlkə anam demişkən, qeyrət çəkmək vaxtım hələ çatmamışdı! Ancaq qanımda nəsə qaynayırdı. O qızlara və qardaşlarına yazığım gəlirdi.

Dəstənin getməsindən heç bir gün də keçməmişdi. Xəbər verdilər ki, onların cəsədlərini gətirirlər. Hamısını öldürmüşdülər. Ölüm yox, demək olar parça-parça olmuşdular. Bir çoxunun başını bədənindən ayırmışdılar. Saqqallıların saqqalını dərisiylə bir yerdə soymuşdular. Saqqalsızların da ya əli yox idi, ya başı, ya da ayağı. Deyirdilər, onları Sarıdaşın (Sərdəşt) döngəsində mühasirəyə salmışdılar. Faciənin böyüklüyü Sulduzu altına basmışdı. Bu dərd Sulduzun çiyinlərindən daha böyük idi. Sulduz əzilirdi…

Ölüləri görməyə getmişdik. Çətin də olsa, izdihamın içindən keçib cəsədlərə yaxınlaşdım. Parçalanmış bədənlərin içində gözüm Rzanın bədənsiz başına dəyəndə huyuxdum. Rzanın gözü açıq idi. Mənə baxırdı. Namus yalnız onu çəkən bir adam olanda mənası olur. Yəni namusu çəkən adam olmasa, namus da bir çox mənasız kələmələr kimi unudulur. Yoxsa o qızlar da bütün sahibsiz qızlar kimi gedərdilər və heç bu namusun adı da ortaya çıxmazdı. Ancaq qaçırılan qızların qeyrətini çəkən var idi deyə, qeyrət sayılırdılar. Namus və qeyrət çəkənindi. Rza kimsəni sevmirdi, amma sevə-sevə namusunu qorumağa getdi. Anasından sonra atasının başqasıyla evlənməyinə razı deyildi. Atasını xain hesab edirdi. Xəyanət sərhədsiz və sonsuz bir anlamdır. Atam demişkən: “Güc kimdədirsə, o, haqdır, haqq da kimdə olsa, həmin adam xain deyil.”

Şəhidlərin qıırxıncı günündə xəbər gəldi ki, qızlar qayıdıblar. Terrorçular onları gətirib şəhərin ətrafında buraxmışdılar. Görənlər deyirlər ki, heç birinin bədənində paltar yox idi. Qızlar lüt bədənlərindən qabaq əl-

ləriylə üzlərini örtməyə çalışırmışlar. Guya onda abırlarını qoruyurmuşlar. Ata və qardaşlarının başlarına gələnləri biləndən sonarsa çoxu özünü öldürdü. Birisı benzinlə özünü yandırdı, biri zəhər içib intihar elədi. Bəzilərisə şəhərdən çıxıb getdilər.

Fikirim qətiydi. İçim rahatlanmışdı. Ürəyimə bir qərib rahatlıq oturmuşdu. Özümdə güc toplayıb Raziyənin kamerasına tərəf yola düşdüm. Etiraf vaxtıydı. İnsan özüylə qəti qərara gələndə rahatlaşır. Özüylə barışanda dünya üzünə gülür. Mən özümlə barışmışdım.

Kameranın qapısına çatanda dayandım. Dərin bir nəfəs alıb qapıdakı pəncərəni açdım. Raziyə uşaq kimi özünə bürünüb yatmışdı. Dünən qəbir qazandan sonra qazdığı qəbirdə yatırtmış, bu gün səhərsə gətirib kamerasına atmışdılar. Ona görə də onun halını başa düşürdüm. Yanındakı yeməklə dolu qabdan da yemək yemədiyini bilmək olardı. Qapını barmaqlarımla asta döydüm. Raziyə yerində tərpəndi.

– Raziyə xanım, içəriyə gəlmək istəyirəm!

Raziyə çətinliklə yatdığı yerdən qalxıb yatağında oturdu. Başıyla qapıya tərəf baxıb bir əliylə saçlarını, başqa əliylə də ayaqlarını örtməyə çalışdı.

Qapını açıb içəriyə keçdim. Üzümü bağlamışdım. Raziyədən divara tərəf çevrilməsini istəmədim. Raziyə başını yerə salmışdı. Yavaş-yavaş irəli gedirdim. Əsir-

di. Ayağının baş barmağı qaralmışdı. Əllərisə bel-külüng vurmaqdan qanlı və düyünlüydü.

– Sizinlə danışmalıyam.

Halsızcasına sızıldadı:

– Halım yoxdu… olar sora?

– Artıq sora yoxdu, Raziyə! Ya indi, ya heç vaxt!

Raziyə səsimin tonundan təəccüblənmiş kimi, başını bir az da qaldırdı. Mən onun yerinə olsaydım, bu qədər güclü ola bilməyəcəkdim. İndiyə qədər min dəfə ölmüş olardım.

– Üzüyü gətiribsiz?

– Hə! Amma qabaqca bir az danışmalıyıq.

– Nədən? Yenə eləmədiklərimin etirafı?

Yazığın səsi çıxmırdı.

– Hə, Raziyə! Etiraf! Amma bu dəfə sən yox, mən etiraf etməliyəm.

– Siz? Siz nəyi etiraf eləməlisiz?

Gün kameranın yuxarısında olan kiçik pəncərədən içəriyə gəlməyə çalışırdı. Qara buludlardan xəbər yox idi.

– Bütün adamlar nəyisə etiraf eləməlidilər, mən də hamı kimi.

Bir az da yaxınlaşıdım. Raziyənin başının üstündə dayandım.

– Raziyə, həmişə belədi, qandallar günahkarın yox, haqlının əlinə vurulur.

Sıxıla-sıxıla gözümün yaşını tökürdüm. Raziyə tərpənmədən, dinmədən qulaq asırdı. Bəlkə də hələ nə baş verdiyini başa düşə bilmirdi.

– Raziyə, bu gün yalnız mən danışacam. Neçə ildi ancaq qulaq asmışam. Danışdırmışam. Yara yığmışam

yara üstünə. Ölümlər, ayrılıqlar görmüşəm. Uşaqlıq həsrətlərimlə böyümüşəm. Sən demişkən, – heç bilməmişəm kiməm. Türkəm, kürdəm, farsam, nəyəm? Dırnaq çəkmişəm, saç yolmuşam, şallaq vurmuşam… nə deyim… min oyundan çıxmışam! Mən işimə nifrət eləyirdim, amma nə iş eləyəcəyimi də bilmirdim. Mən pis adam deyildim, Raziyə. Mən… mən nə eləyəcəyimi bilmirdim… sadəcə, bu… sadəcə…

Raziyə özünü qucaqlamışdı. Gözlərindən gizli bir yaş süzürdü. İstəmirdi ağlamağını görüm, amma mən gördüm. Dedi:

– Bu sözləri mənə niyə deyirsiz?

– Elə sənə deməliyəm da, Raziyə… yaradanı sənsən… Bunların başqa eşidəni yoxdu… olmayacaq da… Eşitsələr də, dərdlərinə dəyməyəcək!

– Sizə nə olub, ağa!? Mən ki, heç nə başa düşmürəm!

– Mən də heç nə başa düşmürdüm… sən mənə hər şeyi başa saldın…

Demək olar ki, ağlayırdım. Bəlkə gizlətməyinə çalışdığım hıqqıltımı hiss eləmişdi.

– Mən… mən sizə neynəmişəm?

– Sən mənə kim olduğumu öyrətdin, Raziyə… sənə bir sirr açmaq istiyirəm!

Büt kimi oturmuşdu. Dizlərinin üstünə qoymuş əlləri asta-asta titrəyirdi. Ancaq özünü saxlamağa çalışırdı.

– Buyurun, qulaq asıram!

Otağın içində yeriməyə başladım. Özümdən asılı deyildi. İçimdəki qəhər məni ölücəsinə sarsıtmışdı.

– Uşaqlıqda bir qızı sevmişdim… divar bir qonşuyduq. Qapılarında qu quşunun şəkillləri var idi. O dövrün ən gözəl xatirələri elə o qıza aiddi. “Qonaq-bacı” oynayardıq… o məni sevmirdi… İlk dəfə kişilik hissini onun yanında keçirmişəm… Ev qurardıq öz xəyalımızda, evimin xanımı olardı… amma əllərinə belə əlim toxuna bilməmişdi… gecələr yatanda onu fikirləşirdim... Uşaq idim da… sevirdim… O məni sevmirdi… Mən söz vermişdim ki, heç vaxt onu tək qoymayacam, amma qoydum… Söz vermişdim ki, kişisi olacam… Deyirdim “arvad kişini sevməsə də olar.” Təki mən onu sevirəm… Mən onu uşaqlıq dünyamda sevirdim, Raziyə… bilirsən! Nifrət eliyirəm böyüməyə... Böyüyəndə çox şeydən uzaqlaşırsan, itirirsən… Sevmədiyin adamlarnan yaşamağa məhküm olursan… Öz şəhərində qərib olursan… lap elə yazıq adama çevrilirsən… unudursan… unudulursan… Onu da deyim ha, çox şeylər var ki, unuda bilmirsən… yara kimi ürəyində qalır, köz kimi gizlənir dərinliyində… vay o günə ki, kimsə ona üfürə… kimsə…

Raziyəyə baxdım. Sakit oturmuşdu. Heç tərpənmirdi. Sanki ağrılarını unutmuşdu. Dərin fikirə daldığını hiss edirdim. Dayandım və Raziyənin üzüyünü cibimdən çıxarıb baxdım. Üzüyü yumruğumda var gücümlə sıxdım.

– Bilirsən, Raziyə! Kim bilir, nə olacaq? Kim bilir, başına nə gələcək? Gələcəyi heç kim bilə bilməz… səhv elədiyin yerdə dayanıb geriyə getməlisən, yoxsa artıq heç vaxt geriyə yolun olmayacaq. Günahlarını yumaq və sevdiklərinə çatmaq üçün yalnız bir yolun qalır…

– Bu sözləri mənə niyə deyirsiz? Siz… siz kimsiz?

– Çünki, indi səndən sonra heç kimim yoxdu, Raziyə!

Raziyə başını qaldırıb mənə baxdı. Üzüm bağlıydı, amma gözlərim açıq idi deyə, gözlərimin dərinliyinə baxmağa çalışdı. Mən də onun gözlərinə baxdım. Ah, onun gözləri… ah Raziyənin gözləri…

– Siz kimsiz?

Səsi əlləri kimi əsirdi. Mən də əsirdim. Bütün varlığım əsirdi. Bu saniyələr mənim həyatımın ən dəyərli anıydı.

– Mən… mən… mən uşaqlıq sevgilisinə zindanda işgəncə verən bir alçaq… mən heç kim olmayan bir türk… mən… mən Seyid adıyla tanınan bir qatıl… mən uşaqlıq nişanlısıyla zindanda evlənməyə məhkum olan bir rəzil… mən… doğrudan, mən kiməm axı… Raziyə…?!

Artıq ağlamağımın səsi dəhlizin o başına da çata bilərdi. Raziyə də ağlayırdı. Həyəcandan ayaqlarım tutulmuşdu. Yavaş-yavaş Raziyəyə yaxınlaşıb qabağında diz çökdüm. Raziyə hönkür-hönkür sızıldayırdı. Başımdan qara örtüyü çıxarıb bir tərəfə atdım. Yumruğumu Raziyəyə tərəf uzadıb Raziyənin gözünü qabağında açdım. Raziyə gözü üzüyə dəyəndə başını qaldırıb mənə baxdı. Gözləri parıldayırdı. Gözləri hələ də gözəlliyini itirməmişdi. Hələ də gözəl idi. Bəlkə də bir dəqiqəyə yaxın gözlərimizi ayıra bilmədik. Raziyə qanlı əllərini uzadıb üzüyə toxundu. Sonrasa başqa əlini uzadıb gözünün yaşını sildi. Əlini öpmək istədim, qoymadı.

– Sən… sən… amma… burda neynirsən sən…? İnana bilmirəm!

– Hə, bu mənəm, Raziyə, mən! Yaxçı bax, qonşunuz…

Dəhşət, təəccüb və göz yaşı qarışıq dedi:

– Sən dərs oxuyan idin. Nə oldu bu işə gəldin? Deyirdin müəllim olacaqsan… yadında?

– Yadımda, Raziyə… olmadı… yəni… məcbur oldum…

– Niyə axı? Səni nə məcbur elədi? Məcbur olan adam deyildin sən!

– İstəiyirsən biləsən?

– Hə, bimək istiyirəm, de…

Bilmirdim necə və hardan başlayım. Başıma gələn hadisə o qədər acı və utandırıcıydı ki, demək olmurdu. Özümü toplayıb ayağa qalxdım. Gedib qapıya söykənib dedim:

– Deyirəm… qınasan da diyəcəm… ölsəm də diyəcəm…

Dərindən bir ah çəkib dəvam elədim:

– Urmiyədəki küçəmizin başında bir qonşumuz var idi. Adı Bəhruz idi. Çox əyyaş uşağıydı. Başıma nə gəldi onun ucbatından oldu!

– Danış!

– Onda hələ çox gənc və cahil idim. Qanımın qaynıyan vaxtıydı. Qızı görəndə ilk beynimə gələn fikir onunla necə və harda yatmağım idi. Bilirsən da… cavanlıqdı da!

Raziyə gülümsədi:

– Sən elə uşaxlıxdan eləydin!

Utandım. Başımı aşağı saldım.

Raziyə dedi:

– Sora?

Utana-utana dedim:

– Bir gün Bəhruz zəng eliyib dedi ki, gözəl və cavan bir fahişəynən tanış olub. Dedi ki, qonaqlıq qurmaq lazımdı… biz də vaxt itirmədik…

– Yəni?

– Yəni 3-4 dost yığışıb o fahişənin evinə qonaq getdik!

Raziyə gözlərin yumdu.

– Sora?

– İlk dəqiqələr çox yaxçı keçirdi… yeyib, içib, əylənirdik… hərə öz pulunu televiziyonun üstünə qoyub onun otağına girib, işini görüb, çıxırdı… mən axırıncı adam girdim o otağa…

– Və?

– Və çıxanda gördüm uşaqların heç biri yoxdu. Hər kəs çıxıb öz pulunu götürüb qaçmışdı… Uşaqlar mənnən zarafat eliyirmişlər, amma bu mənə çox baha başa gəldi…

– Necə?

– Qadın bağırmağa başladı. Neynirdim susmurdu… qonşular bildilər… polis gəldi… mən qaça bilmədim…

Əllərimlə üzümü tutdum. Ürəyimin acılığı ağzıma gəlirdi. Özümün özümə yazığım gəlirdi.

– Məhkəmə məni məcbur elədi onu alam… mənim qolumu ona kəbin qoydu… abırıma sığınıb aldım… o pis qız deyil… hicabını qoruyur… pis yoldan uzaqlaşdırdım… uşağımız da var… şəhərdə görünməkdən qorxurdum… bura gəldim ki, öz təkliyimdə yaşıyım… gizlicə öz dərdimi çəkim…

Raziyə heç nə demirdi. Susub oturmuşdu.

– Mənə nifrət eliyirsən, düzdü, Raziyə?

Başını qaldırıb dedi:

– Başıva dolanım… Yox… Eləmirəm. Sən bu ölkənin, bu durumun yaratdığı bir bədbəxtsən… günah səndə deyil… azad ölkədə fahişəynən yatmağın cürmü onunla evlənmək deyil ki. Sən kişilik eliyibsən hələ… fahişədən ev xanımı düzəldibsən…

Üzündə bir razılıq əlaməti var idi. Barmağını mənə tərəf uzadıb sızıldadı.

– Qismətimiz belədirsə… qoy olsun… mən… mən razıyam…

– Nəynən razısan?

– Kəbinsiz və məhkəməsiz sənnən evlənməyə!

Onun özü bilirdi sabah başına nələr gələcək. Bilirdi bu, son gecədi. Bilirdi bakirə getməsin deyə, mən burdayam. Bilirdi… bilirdi!

Üzüyü dodağıma tərəf aparıb öpdüm. İkinci dəfə Raziyənin barmağına taxdım. Ancaq bu dəfə yekə barmağına yox, nişan barmağına taxdım. Əlləri buz kimi soyuq idi. Gözlərini yummuşdu. Dedi:

– Oxu siğəni!

“Bismillah” – deyib siğəni oxumağa başladım. Gözümün yaşı dayanmadan axırdı. “Qurbanın olum, Raziyə!”

Xırıldiya-xırıldiya dedim:

– Mənnən evlənməyə razısan?

Pəncərəyə göz dikib dedi:

– Razıyam!

Raziyəmin göz yaşları dayanmırdı. Ayaqları da, əlləri də əsirdi. Nifrət edirdim Xomeyniyə də, Şaha da,

azadlığa da! Bütün ideologiyalara nifrət edirəm. Bu, nə azadlqdı ki, yolu bu biabırçılıqdan keçir. Bu, nə vətəndi, nə vətəndaşlıqdı?

– Sabah bilirsən nə olacaq, Raziyə?

– Bilirəm!

– Asacaqlar səni!

– Bilirəm!

– Səni qucaqliya bilərəm?!

Heç nə demədi. Onu qucaqlayıb dəlicəsinə ağlamaq istəyirdim. Sevgi istəyirdim, amma gecikmiş sevginin közü alovlanıb ikimizi də yandırırdı. Dedi:

– Başlaya bilərsən!

– Nə?! Nəyi?

– Dedim ki, işini başlaya bilərsən!

Elə bil başıma daş saldılar. Raziyə, Raziyə, Raziyə, nə olar belə eləmə mənnən...

– Raziyə, mənim işim bu deyil… Kak Murada verirdilər səni…

– Heç nə demə… işini başla…

Raziyə zülüm-zülüm ağlayırdı. Onu sevirdim. Yanında oturub qucaqlamaq istədim. Etiraz eləmədi. Bağrıma basdım. Saçlarını qoxlayaraq öpürdüm. Sankı min illərdi o saçların, o qoxunun həsrətindəydim. Saçlarını öpəndə hiss elədim əti ürpəşdi. Ehtiras! Özü də bu qazamat zindanın ortasında! Onu elə möhkən sıxmışdım ki, elə bil qorxurdum əlimdən alarlar. Başını qoydu çiynimə. Ağlayırdı.

– Niyə belə oldu, Raziyə?

Qəhərdən boğula-boğula dedi:

– Bilmirəm… bilmirəm…

Sonsuz bir titrəyiş oturmuşdu bədəninə.

– Səni çox sevirəm, Raziyə!

Bu sözümün müqabilində yalnız ağladı! Başını öpdüm. Yenə qoxladım, yenə öpdüm! Qanlı əlini əlimə alıb sızıldadım, öpdüm.

– Ayağın çox ağrıyır?

– Artıq nə fərq eliyir… Başla, nə olar?

– Tək yox… ikimiz də başlayaq… xahiş eliyirəm… bu yalnız mənim günahım deyil axı… mənə də yazığın gəlsin...

Əyilib dırnaqlarını öpdüm.

– Əlim qırılaydı…

– Ağrımır!

– Bizdən bədbəxti var, Raziyə?

– Mən özümü bədbəxt saymıram!

– Amma mən çox bədbəxtəm… çox…

Əlimdən yapışıb özünə tərəf çəkdi. Üzünü az qala yapışdırdı üzümə. Gözlərini dikdi gözümə. Dedi:

– Başla… kişi ol! İndi vaxtıdı…

Və dodağımı öpdü! O yaralı bədəndən doğan ehtirası heç bir xanımdan ala bilməmişdim. Mən də öpdüm. İkimiz də ağlayırdıq. Kədərli bir ehtirası paylaşırdıq. Gözlərini öpdüm. Yanağını öpdüm. Bədəninin hər yeri yaraydı. Yaralarını öpdüm.

– Raziyə, bura kişi yeri deyil… bu soyuq və rəhmsiz betonların ortasında necə kişi olum?!

– Eybi yox… sən kişi ol… heç kimin ola bilmədiyi yerdə kişi ol!

Gözlərini yummuşdu. Bədəni göz yaşımla yuyulurdu. Əlim yaralı bədənində gəzirdi. Ağlayırdıq. Ehti-

rasımız qana bürünmüşdü. Uşaqlığım yadıma düşdü. "İynə-iynə" oynaya bilməmişdik! Özümə dedim: "Bud a sənin iynə-iynən." Böyüklərin "İynə-iynə" oynaması çox fərqliymiş. Bizim kimi böyümək çox ağır və ağrılı faciədi. Bu faciəni daşımaq üçün əsl kişi lazimdi. Lap Rza kimi kişi olmaq lazimdı!

Nəfəs-nəfəs vururduq. Bütün bədənim tər idi. Həmiz soyuq və dar çarpayının bir tərəfinə uzanmışdıq. Hər şey bitmişdi. Raziyə artıq qız deyildi, mənim xanımım idi, namusum idi.

– Sabah sən də burda olacaqsan?

– Olum?

– Ol!

– İstəyirəm sən məni dar ağacına tərəf aparasan, Halqanı da özün boynuma salasan…

– Olacam… çox çətindi, amma olacam… kaş bir çıxış yolu olaydı… qorxuram, Raziyə!

– Qorxma… mən qorxmuram! Yolun sonunu biləndə qorxmursan. Sən də bilməlisən yoluyun sonunu. Onda qorxmazsan!

Üzüyü gözünün qabağına tutub dedi.

– Üzüyə görə çox sağ ol. İnanırsan, bunu bir gün belə özümdən ayırmamışam? Bilmirəm niyə, amma çox sevirəm bunu.

Sonra da üzüyü öpüb dərindən bir nəfəs aldı.

– Zindan bizim evimiz oldu, Raziyə!

Özünə dalıb dedi:

– Azadlıq gözəldi, ev gözəldi, zindanda olsa belə. Bura mənim evimdi. Sən də işini gördün. Sənin üçün sevinirəm. Məndən narahat olma… bu zindanlar

mənim kimilərini çox görüb… qanım ölənlərdən qırmızı deyil ki!

Raziyəyə paxıllığım gəlirdi. O, çox güclüydü. Teleyini bilən və onunla barışmış adam azad insandı. Raziyə azad insan idi. Raziyə dünyanı öz boyu qədər biçmişdi. Azadlığı qədəh dolusu içmişdi. Ona görə də itirəcəyi və çata bilməyəcəyi bir şey yox idi. Quşun balası gec, ya tez uçacaq, əsas odur ki, quş olduğunu bilsin və başa düşsün.

Mən Raziyəyə nicat verə bilərdim, amma Raziyələrə nicat verə bilməzdim. Zülmün kökü kəsilməlidi. O da ki, mümkünsüz görünürdü. Nə qədər insan var, ədalətsizlik var, müharibə var, zindan var. Məncə, ədalət ədalətsizlik tək qalmasın deyə yaradılıb, yoxsa özlüyündə heç mənası yoxdu. Necə ki, sülhün və azadlığın mənası yoxdu!

– Niyə və necə döyüşməyin mühümdü, hara çatacağın yox!

Kinayəylə dedim:

– Sonu budu da, Raziyə!

– Yox, sonu bu deyil… hələ sona çox var… bir gülnən bahar olmur, amma bahar başlaya bilir!

Mən də o bir gül ola bilərdim. Mən də ilk gül olmaq istərdim. Raziyə kimi olmaq istəyirəm!

– Sənsiz baharın nə mənası var, Raziyə? Bahar sənsən!

– Bu millətin baharı hələ evlərdə böyüyür, məktəblərdə böyüyür… bahar millətin birlikdə gülməsi və birlikdə ağlamasıdı. Bir dildə dərdləşməsidi!

Raziyədən ayrılmaq istəmirdim. Heç vaxt almadığım hissləri mənə verirdi, heç yerdə eşitmədiyim söz-

ləri eşidirdim. Saatlarla saçlarında, sinəsində uyumaq istəyirdim. Əllərini, ayaqlarını öpüb sığallamaq istəyirdim. Onun olmaq istəyirdim. Uşaqcasına onunla yaşamaq istəyirdim. Ancaq bu, mümkün deyildi. Doktor indi gəlib Raziyəni yoxlayacaqdı.

– İndi doktor gələcək, Raziyə!

Yerindən qalxıb çətinliklə paltarlarını geyinməyə başladı. Kömək eləmək istədim, amma qoymadı.

– Namusumu öz millətimdə saxladığın üçün sağ ol!

– Nə?

– Kak Murada vermədiyin üçün təşəkkür eliyirəm!

Haqqı var idi. Namus paltar kimidir. Millət namus kimidir. Kim arvadının paltarını qonşu kişiyə verər? Yaşadığım bu illər ərzində birinci dəfəydi ki, özümlə fəxr eləyirdim. Sən millətini öz millətindən olan birinə sata bilərsən, amma başqasına sata bilməzsən. Bu, əsl xəyanətdi. "Vətən" və "Vətəndaş" kəlmələrinə məna verən insandır. O qədər vətəndaşın vətəndaşa xəyanətini görmüşəm ki, artıq bütün insanlara nifrət eləməyim gəlir, amma gələ bilmir!

– Kaş səni neçə il qabaq tanıyardım, Raziyə!

Ayağa qalxıb geyindim. Bəzən faciə o qədər böyük olur ki, sən onu başa düşə bilmirsən. Donub qalırsan. Özün də bir kiçik faciəyə çevrilirsən. Beynində yaranan suallar səni içdən yeyir. "Niyələr" və "kaşlar" səni dağıdır. Ümidin hər yerdən və hər şeydən üzüləndə özünə güvənməyə məcbur olursan. Yalnış da olsa, nəsə bir qərara gəlirsən, bax elə həmin qərar sənin əsl taleyin olur. Özün öz alın yazını yazırsan!

– Olacağa çarə yoxdu. Bu mənim üçün çox gözəl bir sondu.

– Və mənim üçün əzəmətli bir başlanğıc!

Yaxınlaşıb iki əlimlə çiyinlərindən yapışıb alnını öpdüm. Qoxusunu sinəm dolusu içimə çəkdim. Raziyə başını qaldırıb gözlərimə baxdı. Gözlərinin küncündən sirli bir yaş süzüldü. Əyilib gözlərindən öpüb dedim:

– Allahına tapşırıram səni!

Sonarsa qapıya tərəf getdim. Ağzımın suyunu uda bilmirdim. Boğazım şişmişdi. Qapını açanda Raziyə asta səslə dedi:

– Millətimizin Allahı da sənə rəhm eləsin!

O, düz deyirdi. Mənə gərək öz millətimizin Allahı kömək eləsin. Hər millətin öz Allahı olur. Allah insanların düşüncə, həyat tərzi və istəklərindən doğan bir məfhumdu. Sənin Allahının gücünü sənin zəifliyinin dərəcəsi bəlli edər. İstəkanın dolu yeri Allah və boş tərəfi sənsən. Gözləyirsən kimsə gəlib o boş yeri də doldursun. Hər millətin də özünəməxsus tarixi və yaşam tərzi var. Özünəməxsus gücü və zəifliyi var. Amerikalı nə bilir mən bu xarabada nə çəkirəm? Nə bilir ürəyimdən nə keçir. Heç onun Allahı da bilə bilməz. Amerikalının Allahı amerikalı kimi düşünür. Şərqin İran adlı bir xarabası, hələ onun da başıbəlalı Azərbaycanında, kim nə bilir biz nə çəkirik. Şərqin, ümumiyyətlə, Allahı ölüb. Yerdə qalan mənim kimi bəndələrdi…!

Səhər azanına yaxın olardı. Zindanın arxa həyətində uca bir dar ağacı hazırlamışdılar. Günəş buludların arxasında gizlənmişdi. Hava sanki işıqlanmaq istəmirdi. Raziyənin kamerasında bir molla və bir

doktor var idi. Molla guya ona "Quran" oxuyub Allahdan bağışlanmasını istəyirdi, doktor da onun sağlamlığını yoxlayırdı. Mollaya ürəyimdə dedim: "Allah sənin kimi şərəfsizlərin günahından gərək keçə, ay əclaf! Raziyənin ən böyük günahı onun azad yaşamaq istəyiydi. Amma sənin kimi mollaların günahı lap çoxdu, çox, çox!"

Gözümün yaşı sözümə baxmırdı. Hamı mənə baxırdı. Molla və doktordan xahiş elədim kameradan çıxsınlar.

– Güclü ol, Raziyə!

Mənə baxmadı. Acı gülümsədi.

– Dünən yadımdan çıxdı sənə bir söz deyəm!

– Nə?

Üzünü mənə tərəf çevirib düz gözlərimin dərinliyinə baxdıb dedi:

– Azadlığa çatmaya bilərsən, amma onu dadmaq da böyük işdi. Mən onu daddım!

Əllərini ikiəlli tutub sıxdım.

– Mən də daddım, Raziyə. Mən azadlığı gördüm, hiss elədim.

Gözümə göz dikib dedi:

– Səndən bir xahişim var!

– De…

Üzüyü barmağından çıxarıb mənə tərəf uzatdı.

– Al… saxla…

Çox təəccüb elədim!

– Niyə? Nə oldu ki? Qaytarırsan?

– Yox. Qorxma… bilirsən, bir gün bu millət də azadlığı görəcək, hiss eliyəcək. Azadlıq gələndə barmağına taxarsan!

O güldü, mən ağladım! O uddu, mən uduzdum! Üzüyü titrək əllərimə alıb yumruğumda sıxdım. Bu istəyin müqabilində nə edəcəyimi bilmirdim. Vaxt yox idi. Raziyənin o yaralı əl-ayağını qandalladım. İstəmirdim kimsənin əli ona toxunsun. Mən onun əriydim!

Dedilər Hacı gəlir. Tələsik gözümü sildim və Raziyənin başına qara torba keçirtdim.

– Hazırsan?

– Hazıram!

Əlindən yapışıb yavaş-yavaş kameradan dəhlizə çıxartdım. Yeriyə bilmirdi. Barmaqları şişmişdi deyə, addım ata bilmirdi. Sağ-solumda iki əsgər gəlirdi.

– Mübarək olsun, Seyid!

Hacıydı. Dəhlizdə üz-üzə gəldik. Cavab vermədim. Gülümsədim. Özümü möhkəm saxladım. İstəmirdim sınmağımı görsün. Bunu Raziyədən öyrənmişdim. Asta addımlarla dəhlizdən həyətə tərəf yola düşdük. Azan səsi gəlirdi. Ölüm dəhlizindən kölgə kimi irəliləyirdik. Hər addımımız bir uzun yolçuluğa bənzəyirdi. Sanki hər bir addımımızda böyük sirlər, dəhşətli keçmişlər, ağrılı hadisələr söylənilirdi. Hər addımımız kitabın bir vərəqi kimi açılırdı həyata. Bir-bir, tələsmədən addım atırdıq. Ölüm dəhlizini fəth eləyib həyətə çatdıq. Həyətin o başında dar ağacı görünürdü. Raziyəyə baxdım. Qoluna girib inamla irəli getdik. İnanmırdım ki, bir neçə dəqiqədən sonra Raziyə bu dünyada olmayacaq. Axı Raziyə kimilər olmasa, bu dünyanın nə mənası

var? Şərəfli insanlar olmasa, dünya üstü açılmış bir yalana bənzəyər – nə dadı qalar, nə duzu!

Dar ağacının yanına çatanda Raziyə dayandı.

– Olar bu torbanı başımdan çıxarasız?

Hacıya baxdım. Heç nə demədi. Torbanı Raziyənin başından çıxartdım. Dərindən nəfəs aldı. Gözünü dikdi göyə. Günəş hələ çıxmamışdı. Bəlkə də Raziyənin gözünə baxmaqdan utanırdı. Raziyə günəşin üzünə baxmaq istəyirdi, onun bir səhər cağı xalqının üzünə doğacağına inanırdı. Mən halqanı onun boynuna saldım. Raziyə dilinin altında nəsə deyirdi. Sözlərindən "ana" kəlməsini seçə bildim. Gözü yol çəkirdi. Son dəfə qucaqlaşıb vidalaşdıq. Qulağıma dedi:

– O dünyaya inanırsan?

Astaca dedim:

– Hə…

– Onda orda görüşərik!

Ağladım, gülümsədi. Gözünü məndən alıb yumdu. Hacı başıyla əsgərə işarə elədi. Əsgər Raziyənin ayağına yaxınlaşdı. Ayağının altı boşaldı…

Hacı salavat çevirib, əlindəki şirniyyat qutusunun ağzını açıb, ordakılara paylamağa başladı. Hamı salavat çevirib bir-birini təbrik eləyirdi. Azadlığın ölümü münasibətiylə şadyanalıq edirdilər! Yadıma gələndə ki, mən də onlardan biri olmuşam, özümə tüpürməyim gəlirdi. Raziyəyə baxdım. Alma kimi asılmışdı ağacdan. Dar ağacı bar vermişdi. Özü də Raziyə kimi ağır və dəyərli bir bar. Gözləri açıq idi. Uzaq bir yerə göz dikmişdi. Bilmirəm bu uzaqda nə var ki, hamının gözü ordadı? Bəlkə azadlıq həmişə uzaqda olur deyə, insanlar uzağa baxırlar! Ölüm halındaydım. Bir azdan Raziyəni yerə

endirib, müayinə edib, ölümündən əmin olandan sonra ölüxanaya aparacaqdılar. Mən o səhnəni görə bilməzdim, yəni gücüm çatmazdı. Artıq orada qala bilmirdim, ona görə də ağır addımlarla otağıma tərəf getdim.

Bilirdim bundan başqa yolum oxdu. Otağıma qayıtdım. Artıq ağlamırdım. Ürəyim sakit idi. Raziyə də artıq rahat idi. Həqiqətlə üz-üzə gələndə, onun mürdar iyini hiss eliyəndə, burnunu dəsmalınla tutma, o mürdar iyin hamısını çək içinə. Başa düş ki, bu iy dünyanın pisliyi deyil, ədalətsizliyin iyidir dünyanı götürüb. Kaş ki, ölülərin də bir yubiley günü olardı. Mizimin arxasında oturdum. Siyirməmi açıb tapançamı götürdüm, Raziyənin üzüyünü öpüb onun yerinə qoydum. Darağında güllənin olmasını yoxlayıb otaqdan çıxdım. Raziyəsiz bu dəhliz məni qəbir kimi sıxırdı. Feyzinin otağına çatanda qapını döymədən içəri gırdım. Qapısında dayanan əsgər bəxtimdən orada deyildi. İmkan tapmadı başını qaldırsın.

Qəzəblə dedim:

– Öl, fahişə!

Gülləni sıxdım ürəyinə və çıxdım. Fikirləşdim ki, indi Feyzinin ərinin ruhu şad olub. Hacının otağına tərəf getdim. Güzgüyə baxmayana qədər güzgü güzgülüyünü başa düşməz. Güzgüyə dəyər verən ona baxan insandı. Kifir və səviyyəsiz olsa, güzgü də kifir və səviyyəsiz görünəcək. Qətiyyən həyəcanım yox idi. Qapını ayağımla açıb içəriyə girdim. Doktor və molla da ordaydılar. Yəqin Raziyəm barədə danışırdılar. Tapançanı Hacıya tərəf tuşladım. Hacı yaman qorxmuşdu. İlk dəfəydi gözlərində belə qorxu görürdüm.

– Neynirsən, Seyid? Qoy yerə onu!

Bir addım da irəli gedib dedim:

– Yox, Hacı, yox… hara qoyuram?! Hələ təzə tapança tutmağı öyrənirəm!

Tapançanı çevirib mollanın başına bir güllə sıxdım. Molla o ərəb paltarlarının içində itdi. Sanki bir topa ət çoxlu parçaya bürünüb yerə düşdü. Doktor üstümə cumdu, amma nəsə eləməyə imkan tapmadı. Bir güllə də onun sinəsinə sıxdım. Hacı yerində donmuşdu. Əlini tülkücəsinə siyirməsinə tərəf aparırdı. Hacıya yaxınlaşdım.

– Hacı, dünən sən mənə yeni həyat verdin. Mən bu gün dünənki Seyid deyiləm. Raziyənin əriyəm!

Danışmağa macal tapmadı. Gülləni ürəyinə sıxdım. Hacı təsbehiylə birlikdə yerə səpələndi. Kimsə gəlməmişdən öncə oradan çıxıb getməliydim. Sürətlə otağıma qayıtdım. Dəhlizdən qaçhaqaç səslərii gəlirdi. Bu dünyadan dörd alçağı azaltdığım üçün sevinirdim. Ayaq səsləri otağıma tərəf yaxınlaşırdı. Günəş çıxmışdı. Xomeyninin də şəkilini divardan çıxarıb arxası üstə mizimin üstünə atdım. Pəncərənin qabağında dayanıb “Sultan Yaqub” dağına göz dikdim və tapançanı gicgahıma tərəf apardım!